Xalqın qəzeti!

# Xalq qəzeti

№ 26 (30720) 6 fevral 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Azərbaycan daim Türkiyənin yanındadır

## *Qardaş ölkədəki dağıdıcı zəlzələdən 2 il ötür*



**Bu gün – fevralın 6-da Türkiyənin bir çox şəhərində baş vermiş dağıdıcı zəlzələdən iki il ötür. Bu şiddətli təbii fəlakət qardaş ölkənin Qaziantep, Hatay, Adıyaman, Kahramanmaraş, Kilis, Malatya, Diyarbəkir və Şanlıurfa, Suriyanın İdlip, Hələb, Hama və Latakia rayonlarını əhatə etmiş, nəticədə xeyli şəhər və qəsəbə yer üzündən silinmişdi. Bildirilir ki, həmin gün Türkiyədə 50 mindən çox, Suriyada isə 9 minədək insan həyatını itirib.**

Dövlət başçımız həmin il martın 16-da Ankarada keçirilən Türk Dövlətləri Təşkilatının dövlət başçılarının fövqəladə Zirvə görüşündəki çıxışında xatırlatmışdı ki, Azərbaycandan 940 nəfər, o cümlədən xilasedicilər, tibb personalı və könüllülər zəlzələ bölgəsinə göndərilib. “Türkiyəyə göndərilən xilasedicilərin sayına görə Azərbaycan dünya ölkələri arasında birinci olub. Xilasedicilər və həkimlərimizin səyi nəticəsində dağıntılar altından 53 nəfər sağ çıxarılıb. Həmçinin 780 nəfərin cəsədi dağıntılar altında aşkar edilib. Tibb personalımız ümumilikdə, 3 mindən artıq şəxsə tibbi xidmət göstərib”.

Prezident, həmçinin əlavə etmişdi ki, cəmi bir ay on gündə 45 milyon ABŞ dollarından artıq vəsait AFAD və digər humanitar qurumların bank hesabına köçürülüb. 5300 ton humanitar yardım isə təbii fəlakətdən zərər çəkən qardaşlarımıza çatdırılıb.

Zəlzələdən sonra mətbuat yazırdı ki, Türkiyənin bu çətin günlərində Azərbaycan xalqı da öz qardaşları ilə güclü həmrəylik, səfərbərlik nümayiş etdirdi. Ölkənin hər yerində humanitar yardım mərkəzləri yaradıldı, təcili qış geyimləri, qida, gigiyena məhsulları və s. toplanaraq ardı-arası kəsilməyən yük maşınları ilə Türkiyəyə yola salındı. Əlavə edilirdi ki, azərbaycanlıların bu cür genişmiqyaslı səfərbərliyi daha əvvəl 44 günlük Vətən müharibəsi dövründə baş vermişdi. Fəlakətin ilk üç günü ərzində Azərbaycan vətəndaşları Türkiyəyə xeyriyyə məqsədi ilə milyon dollara yaxın vəsait köçürmüşdü.

**(ardı 3-cü səhifədə)**

## ABŞ Konqresində “erməni təəssübü”

### *Köhnə-yeni havalara qol qaldıranlar az deyil*

**ABŞ-ın sabiq Prezidenti Cozef Baydenin fəaliyyəti dövründə ermənipərəst mövqe tutan konqresmen və senatorlar o qədər “aktivləşmişdilər” ki, bu hay-küyçü kəsimi indinin özündə də sakitləşdirmək mümkün deyil. Onlar əllərinə düşən hər imkandaca özlərinin xəstə təfəkkürlərindən irəli gələn məsələləri qabartmaqdan çəkinmirlər. Beynəlxalq Dini Azadlıq Sammiti çərçivəsində Birləşmiş Ştatlar Konqresində keçirilmiş müzakirələr də məhz belələrinin “təşəbbüsüdür”.**



Bəli, ABŞ Konqresində Qarabağ ermənilərinin hüquqları, bölgənin erməni mədəni irsinə qarşı təhdidlər və Azərbaycanda saxlanılan erməni məhbuslar məsələsi qaldırılıb. Bu az imiş kimi, ABŞ-ın hazırkı administrasiyasına mövcud istiqamətdə tədbirlərin görülməsi ilə bağlı çağırışlar səsləndirilib. Beynəlxalq Dini Azadlıq Sammitinin həmsədrləri – Sam Brovn bakın və Katrina Lantos Svitin keçirdikləri müzakirələrdə respublikaçı konqresmenlər Qus Bilirakis və Kris Smit, necə deyərlər, dəridən-qabıqdan çıxırlar. Əlbəttə, onlara Amerikanın hay tör-töküntülərinin də dəstəyi olub. Yeri gəlmişkən, dəstəyin birbaşa sponsorluq tərəfi də var.

**(ardı 4-cü səhifədə)**

## Pensiyalar indeksləşdirilib



Səhifə ⇨ 2

## Azad Xocalının ilk körpəsi



Səhifə ⇨ 9

## USAID-in narkobiznes üz qaralığı da məlum oldu

### *Birləşmiş Ştatların bu bədnam “humanitar” təşkilatı Əfqanıstanda tiryək istehsalına da sərmayə qoyubmuş*

**Xaşxaşlı Əfqanıstanın əsas rifah mənbəyinin narkotik bitkilərin becərilməsi və emalı olduğunu dünya bilir. O da məlumdur ki, tiryəkin dünya üzrə təchizatının 80 faizindən çoxu Əfqanıstanın payına düşür. Əfqanların yoxsulluğa, epidemiyaya, işsizliyə və zorakılığa qarşı bir resepti var - daha çox xaşxaş əkmək. BMT-nin məlumatına görə, pandemiya şəraitində keçən 2020-ci il ərzində bu ölkədə narkotik bitkilərin əkin sahələrinin həcmi 37 faiz artıb.**

**(ardı 5-ci səhifədə)**




## Ticarət müharibəsi, yoxsa iqtisadi filtr?



Səhifə ⇨ 11

## TANAP-la 75 milyard kubmetr qaz nəql olunub




Səhifə ⇨ 7

# Türkiyənin yanında olmaqdan qürur duyuruq

*Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana*

**Hörmətli cənab Prezident!**
**Əziz qardaşım!**

İki il əvvəl Türkiyədə baş vermiş dağıdıcı zəlzələ nəticəsində həyatlarını itirmiş bacı-qardaşlarımızın əziz xatirəsini dərin hörmət və ehtiramla anır, onlara uca Allahdan rəhmət, doğmalarına və yaxınlarına səbir diləyirəm.

Azərbaycan bu dəhşətli faciə ilə bağlı qardaş Türkiyənin dərdini bölüşür, kədərini birlikdə yaşayır. Azərbaycan hər zaman olduğu kimi bu ağır günlərdə də Türkiyənin yanında yer aldı, zəlzələ xəbərinin ilk dəqiqələrindən bir yumruq kimi bütün səviyyələrdə qardaş Türkiyənin ətrafında səfərbər oldu, əlindən gələn yardımı və dəstəyi əsirgəmədi. Həmin çətin günlərdə bütün Azərbaycan xalqının ürəyi Türkiyə ilə bir döyünürdü.

Bu gün güclü və qüdrətli Türkiyə dövləti Sizin rəhbərliyiniz altında fəlakətin nəticələrinin aradan qaldırılması, zərərçəkmiş bölgədə həyatın və iqtisadiyyatın dirçəldilməsi, insanların yeni evlər və iş yerləri ilə təmin olunması istiqamətində genişmiqyaslı quruculuq işləri həyata keçirir. Qardaşlıq və vəfa borcumuzun bir parçası olaraq Azərbaycanın da öz növbəsində Kahramanmaraş vilayətində apardığı yenidənqurma və bərpa işlərinə töhfə verərək Türkiyənin yanında çiyin-çiyinə olmağından böyük fəxr və qürur hissi duyuruq.

"Bir millət iki dövlət" prinsipi əsasında həm sevincli, həm də kədərli günlərdə bir-birinə dayaq olan ölkələrimiz və xalqlarımız məhz çətin anlarda qarşılıqlı dəstək göstərərək qardaşlığını və həmrəyliyini sübut edirlər. Bu, həmişə belə olub və bu cür də davam edəcəkdir.

Əminəm ki, bir-birinə qırılmaz tellər ilə bağlı olan xalqlarımızın iradəsi ilə zamanın sınaqlarından çıxmış birliyimiz və strateji müttəfiqliyimiz daim yaşayacaq, ölkələrimizin rifahı və əmin-amanlığı naminə qarşıya qoyduğumuz hədəflərə çatmaq üçün birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Bu anım günündə bir daha Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 fevral 2025-ci il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident İlham Əliyev!**

"Azərbaycan Hava Yolları"na məxsus təyyarənin Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində çoxsaylı insanın həlak olması xəbəri məni dərindən kədərləndirdi.

Əziz dost, Sizə və həmvətənlərinizə Albaniya xalqı adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığımı çatdırıram. Belə kədərli vaxtda Albaniya xalqı olaraq Sizinlə və dost Azərbaycan xalqı ilə həmrəyliyimizi bildirir, yaralananlara tezliklə sağalmalarını diləyirik.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Bayram BEQAY,***
***Albaniya Respublikasının Prezidenti***

# Ukraynaya humanitar yardım göstərilməsi məqsədilə Azərbaycan Respublikasının Energetika Nazirliyinə vəsait ayrılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası humanizm prinsiplərinə söykənərək, ikitərəfli və çoxtərəfli əsasda dünyanın bir çox ölkəsinə humanitar yardımlar göstərir.

Ukraynada yaranmış son vəziyyətlə əlaqədar Azərbaycan dövləti tərəfindən Ukrayna xalqına da bir neçə dəfə humanitar yardım göndərilmişdir.

Azərbaycan Respublikası ilə Ukrayna arasında münasibətlər dostluq və tərəfdaşlıq zəminində müvafiq ikitərəfli sənədlər, o cümlədən 2000-ci il 16 mart tarixli "Azərbaycan Respublikası və Ukrayna arasında dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında Müqavilə", 2008-ci il 22 may tarixli "Azərbaycan Respublikası və Ukrayna arasında dostluq və strateji tərəfdaşlıq haqqında Bəyannamə" və 2022-ci il 14 yanvar tarixli "Azərbaycan Respublikası Prezidentinin və Ukrayna Prezidentinin Birgə Bəyannaməsi" əsasında inkişaf edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Ukraynaya humanitar yardım göstərilməsi məqsədilə Azərbaycan Respublikasında istehsal olunan elektrik avadanlığının satın alınması və göndərilməsi üçün Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Energetika Nazirliyinə 1,0 (bir) milyon ABŞ dollarının manat ekvivalentində vəsait ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 fevral 2025-ci il**

# "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən təmsil olunan Azərbaycan Respublikası Hökuməti ilə İqtisadi və Sosial Məsələlər Departamentinin Dövlət Təşkilatları və Rəqəmsal Hökumət Bölməsi tərəfindən təmsil olunan Birləşmiş Millətlər Təşkilatı arasında Töhfə Sazişi"nin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2024-cü il noyabrın 11-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən təmsil olunan Azərbaycan Respublikası Hökuməti ilə İqtisadi və Sosial Məsələlər Departamentinin Dövlət Təşkilatları və Rəqəmsal Hökumət Bölməsi tərəfindən təmsil olunan Birləşmiş Millətlər Təşkilatı arasında Töhfə Sazişi" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Töhfə Sazişi qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Töhfə Sazişinin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Birləşmiş Millətlər Təşkilatına bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 fevral 2025-ci il**

# "İlham Əliyev. İnkişaf – məqsədimizdir" – 141-ci kitab

**"Biz 2030-cu ilə qədər, təxminən, 6 giqavatlıq Günəş, külək və hidroenerji stansiyalarının tikilməsini planlaşdırırıq. Bu, tam planlarımızın həmisı deyil, 10 giqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb. Biz, həmçinin ixrac bazarlarına diqqət yetiririk və Xəzər dənizindən başlayaraq Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsini nəzərdə tutan digər mühüm enerji təhlükəsizliyi layihəsinin həyata keçirilməsi üçün tərəfdaşlarımızla fəal çalışırıq".**




AZƏRTAC bildirir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin çapdan yeni çıxmış 141-ci kitabında yer alan bu sözləri dövlətimizin başçısı BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimində söyləyib.

Çoxcildliyin 141-ci kitabında toplanmış materiallar 2024-cü ilin noyabr-dekabr aylarını əhatə edir. Bura Azərbaycan Prezidentinin COP29 Liderlər Sammitinin açılış mərasimində, COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) Sammitində çıxışlarının mətnləri, bu beynəlxalq tədbirlə bağlı Azərbaycana gəlmiş dövlət və hökumət rəhbərləri, eləcə də Avropa İttifaqı Şurasının Prezidenti, Avropa Şurasının Baş katibi, BMT-nin Baş katibi, İslam İnkişaf Bankının prezidenti, ICESCO-nun Baş direktoru, Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti ilə görüşləri haqqında informasiyalar daxildir.

Nəşrdə Prezident İlham Əliyevin Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə görüşündə iştirak etmək üçün Qırğız Respublikasına səfərinə dair materiallar verilib. Çoxcildliyin bu kitabında Prezident İlham Əliyevin Bakıda Zəfər parkının açılış mərasimində Azərbaycan xalqına müraciətinin mətni də yer alıb.

Oxucu kitabda Azərbaycan Prezidentinin Ümumrusiya Dövlət Televiziya və Radio Yayımı Şirkəti və Rusiyanın "RİA Novosti" Agentliyi üçün "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru, "Rossiya-1" televiziya kanalında "Vesti nedeli" proqramının müəllifi və aparıcısı Dmitri Kiselyova müsahibəsinin mətni ilə də tanış ola bilər.

Yeni cildə dövlətimizin başçısının COP29 çərçivəsində "Dünya dinləri yaşıl planet uğrunda" şüarı altında keçirilən Dini Liderlərin Qlobal Sammitinin, Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı 12-ci Baş Assambleyasının, "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda II beynəlxalq konfransın, Azərbaycan Uşaqlarının VI Ümumrespublika Forumunun, Azərbaycan könüllülərinin VII həmrəylik forumunun iştirakçılarına müraciətləri də daxil edilib.

Çoxcildliyin buraxılışına məsul "Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarovdur.

# Əmək pensiyalarının indeksləşdirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında pensiyaçıların sosial müdafiəsini gücləndirmək məqsədilə "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 6.2-ci, 29.1-ci və 29.1-1-ci maddələrinə uyğun olaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılsın ki, 2025-ci il yanvarın 1-nə 2024-cü il üzrə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin müəyyən etdiyi:

1.1. orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq, 2025-ci il yanvarın 1-dək təyin edilmiş əmək pensiyalarının sığorta hissəsinin, qulluq stajına görə əmək pensiyasına əlavələr təyin edilmiş əmək pensiyaçılarına münasibətdə – həmin əlavələrlə birlikdə müəyyən edilmiş məbləğinin və 2023-cü il yanvarın 1-dən əmək pensiyalarının tərkibinə daxil edilən maddi yardımların;

1.2. istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq, sığortaolunanların fərdi şəxsi hesabının sığorta hissəsində 2025-ci il yanvarın 1-dək qeydə alınmış pensiya kapitalı məbləğlərinin indeksləşdirilməsini həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** Bu Sərəncam 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 fevral 2025-ci il**

# M.B.Babayevin Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Muxtar Bahadur oğlu Babayev Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 fevral 2025-ci il**

# Pensiyalar indeksləşdirilib

*8,1 faizlik artım 1,1 milyon pensiyaçıya şamil olunub*

**Prezident İlham Əliyevin yeni "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" Sərəncamı bu ilin əvvəlindən reallaşdırılan yeni sosial islahat paketi çərçivəsində pensiyalarda növbəti artımların təmin edilməsinə və pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi sahəsində ardıcıl xarakter alan tədbirlərin bu il də uğurla davam etdirilməsinə imkan yaradır.**

Sərəncamla 2025-ci il yanvarın 1-dək təyin edilmiş bütün pensiyalar Dövlət Statistika Komitəsinin təqdim etdiyi məlumata əsasən, 2024-cü il üzrə orta aylıq əməkhaqqının illik artımına uyğun olaraq 8,1 faiz indeksləşdirilməklə bu il yanvarın 1-dən artırılıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, pensiya artımları pensiyaçıların hər hansı sənəd təqdim etmələrinə, müraciətinə ehtiyac qalmadan və elektron sistem üzərindən avtomatik şəraitdə həyata keçirilir.

Yanvar ayı üzrə pensiyalara edilmiş artımlar fevral ayının pensiyası ilə birgə ödəniləcək.

Pensiyaların indeksləşdirilərək artırılması bütün pensiyaçılara (o cümlədən pensiyaçı olan hərbi qulluqçular, hüquq-mühafizə orqanları əməkdaşları və başqaları), yəni, 1,1 milyon pensiyaçıya şamil olunur və həmin artımlar üçün illik əlavə olaraq 534 milyon manat vəsait ayrılıb.

Dövlətimizin başçısının sərəncamı ilə istehlak qiymətləri indeksinin ötən il üzrə illik səviyyəsinə uyğun olaraq sığortaolunanların fərdi hesablarında 2025-ci il yanvarın 1-dək qeydə alınmış pensiya kapitalları da 2,2 faiz indeksləşdirilərək artırılır.

Bu da işləyən şəxslərin fərdi hesablarındakı pensiya kapitallarının yalnız hər ay üzrə əməkhaqlarından sosial sığorta ayırmaları əsasında deyil, həm də hər ilin əvvəlində dövlət tərəfindən indeksləşdirilmə əsasında artırıldığını da göstərir.

Qeyd edək ki, Prezident İlham Əliyevin 23 dekabr 2024-cü il tarixli sərəncamına uyğun olaraq, reallaşdırılan yeni sosial islahat paketi çərçivəsində 2025-ci ilin əvvəlindən minimum əməkhaqqı 345 manatdan 16 faiz artımla 400 manata çatdırılıb, özəl sektor da daxil olmaqla bir sıra sahələrdə əməkhaqları artırılıb.

Habelə fevralın 1-dən minimum pensiyanın 280 manatdan 14,3 faiz artımla 320 manata çatdırılması nəzərdə tutulub. Müavinət və təqaüdlər də yaxın aylarda artırılacaq.

Ümumilikdə, bu ilin əvvəlindən həyata keçirilən növbəti sosial islahat paketi üzrə sosial ödənişlərdə yeni artımlar üçün əlavə 1,4 milyard manat vəsait ayrılıb və həmin artımlar 3 milyon vətəndaşı əhatə edir.

***XQ***

# M.B.Babayevin Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Muxtar Bahadur oğlu Babayev Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 fevral 2025-ci il**

# Azərbaycan daim Türkiyənin yanındadır





> ***Azərbaycan hər zaman olduğu kimi, ilk dəqiqələrdən, ilk saatlardan qardaş Türkiyənin yanında idi və öz dəstəyimizi, öz həmrəyliyimizi həmişə olduğu kimi nümayiş etdirmişik. Əgər bu acı faciənin fəsadlarının aradan qaldırılmasına bir balaca kömək edə bilmişiksə, bunu özümüz üçün şərəf bilirik. Hər zaman Türkiyə də bizim yanımızdadır, yaxşı günlərdə, çətin günlərdə.***
>
> **Azərbaycan Prezidenti İlham Əliyevin 2023-cü il fevralın 8-də Türkiyənin ölkəmizdəki səfiri Cahid Bağçı ilə söhbətindən**

**(əvvəli 1-ci səhifədə)**

Soydaşlarımızın həmin günlərdə atdığı nəcib addımlar barədə çox yazılıb. Xüsusilə, 25-30 ilin köhnə maşını ilə qardaş ölkəyə yataq ləvazimatı aparan böyük ürəkli – kasıb azərbaycanlının mərdanəliyi həm ölkəmizdə, həm də Türkiyədə dillər əzbəri olmuşdu. Bu yazıda isə əyalət futbol komandalarımızdan birinə azarkeşlik edən soydaşımızın bir oyuna baxmaq üçün aldığı tək biletə 500 manat ödəməsini xatırlatmaq istəyirik. Mətbuatımız həmin günlərdə yazırdı ki, tovuzlu azarkeş Sahib Musayev zəlzələdən əziyyət çəkən Türkiyəyə yardım məqsədilə başladılan aksiyaya 500 manatlıq bilet alaraq dəstək verib. "Turan Tovuz"un mətbuat xidmətinin rəhbəri Süleyman Tağıyev məlumat vermişdi ki, həmin fanat Premyer Liqanın XXII turunda "Kəpəz"lə keçiriləcək ev oyununa bir ədəd simvolik bilet alaraq 500 manat ianə edib. "Turan Tovuz"un rəhbərliyi isə qarşılaşmanın bilet satışından əldə ediləcək gəlirin hamısını Türkiyəyə göndərmək qərarına gəlib. Mətbuat xidmətinin rəhbəri əlavə edirdi ki, aksiyaya maraq böyükdür: "Hətta görüşə gələ bilməyəcək azarkeşlər də bilet alaraq dəstəklərini göstərirlər".



Türkiyəli siyasətçi və ekspertlərin fikrincə, ölkəmizin bu dağıdıcı təbii fəlakətin fəsadlarının aradan qaldırılması üçün atdığı addımlar çox olsa da, onların ən möhtəşəmi Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə martın 16-da Ankarada Türk Dövlətləri Təşkilatının dövlət başçılarının fövqəladə zirvə görüşünün çağırılması və keçirilməsi idi.

Sammitin açılışında çıxış edən Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyədə baş verən zəlzələdən sonra "Fəlakət – Fövqəladə halların idarə edilməsi və humanitar yardım" mövzusunda fövqəladə zirvə görüşünün keçirilməsi təşəbbüsünə görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edərək demişdi: "Zirvə görüşünün keçirilməsi çağırışı ilə çıxış edən can Azərbaycanın Prezidenti cənab İlham Əliyevə şəxsən öz adımdan və millətim adından təşəkkürlərimi bildirirəm".

Son günlər isə kütləvi informasiya vasitələri yazırlar ki, Azərbaycan Prezidentinin təşəbbüsü, dövlətimizin vəsaiti hesabına Kahramanmaraşda salınan "Azərbaycan" məhəlləsində tikilmiş mənzillərin sahiblərinin ilk qrupu dağıdıcı zəlzələnin ikinci ildönümündə püşkatma vasitəsilə müəyyən olunacaq. Kahramanmaraş Böyük Şəhər Bələdiyyəsinin sədri Fırat Görgelin verdiyi məlumata görə Azərbaycan hökumətinin xətti ilə yaşayış massivi ərazisində aparılan işlərə cavabdeh qurum Azərbaycan Mənzil İnşaatı Dövlət Agentliyidir. Türkiyə tərəfdən isə layihənin icrasında Mənzil İnşaatı İdarəsi iştirak edir: "Azərbaycan xalqına və Prezident İlham Əliyevə səmimi təşəkkürümüzü bildiririk. Qardaş ölkənin dəstəyi ilə Kahramanmaraşda zəlzələ nəticəsində dağılmış ərazilər bərpa olunur".

Bələdiyyə sədri bu barədə danışarkən qardaşlığımıza dair başqa bir faktı da yada salıb: "Bu əyalət Azərbaycanla qədim tarixi bağlara malikdir. Türkiyədə baş vermiş dağıdıcı təbii fəlakətdən əvvəl şəhərin mərkəzi və ən izdihamlı küçələrindən birinə "Azərbaycan" adı verilmişdi.

Həmkarlarımız bələdiyyə sədrinə istinadən yazırlar ki, Kahramanmaraşdakı "Azərbaycan" məhəlləsi tək yaşayış binaları və ticarət meydanlarından ibarət deyil, burada, həmçinin məktəb və mədəniyyət mərkəzi də inşa edilib. Layihə çərçivəsində aparılan işləri yaxın aylarda bitirmək planlaşdırılıb. "Azərbaycan" məhəlləsində fəaliyyət göstərən Heydər Əliyev adına məktəbdə tədris prosesi isə davam edir.

Elə Azərbaycan – Türkiyə qardaşlıq və dostluq münasibətlərinin ibrət dərsləri də davam edir.

***İttifaq MİRZƏBƏYLİ***

# Kahramanmaraşın qəlbində hər zaman bir Azərbaycan yaşayacaq





**İki il bundan əvvəl – 2023-cü ilin fevralın 6-da bütün dünya Türkiyənin Kahramanmaraş şəhərində və ətraf bölgələrdə baş vermiş dəhşətli zəlzələdən sarsıldı. Dəhşətli fəlakətin ilk saatlarında qardaş ölkəyə yardım əlini uzadan Azərbaycan oldu. Azərbaycan hökuməti dərhal axtarış-xilasetmə qruplarını zəlzələ bölgəsinə göndərdi, faciədən zərər çəkənlərə ərzaq və digər lazımi yardımları çatdırdı, sığınacaq üçün çadır və konteyner şəhərcikləri yaratdı. Təbii ki, Azərbaycan bunlarla kifayətlənmədi, "əsrin fəlakəti" ilə üzləşmiş qardaş ölkənin acılarını azaltmaq üçün burada inşaat işlərinə qərar verdi. Beləliklə, Kahramanmaraşın mərkəzində "Azərbaycan məhəlləsi"nin inşası qərarı "bir millət–iki dövlət"in parlaq nümunəsi idi. Artıq "Azərbaycan məhəlləsi" sakinləri qəbul etməyə hazırdır. Burada salınan "Azərbaycan" bulvarı isə dar gündə qardaşa qardaş köməyinin, vəfanın və sədaqətin simvolu olacaq.**

Kahramanmaraş Böyükşəhər Bələdiyyəsi sədri Fırat Görgəl sualımıza gözləmədən şəhər sakinlərinin Azərbaycana hədsiz sevgisindən danışdı: "Azərbaycanın 2020-ci ildə 44 günlük savaşda Ermənistan üzərində qələbəsinə necə sevinmişdiksə, şəhərimizin yenidən qurulmasına qardaşlıq töhfəsini verəndə qəlbimiz eyni hisslərlə doldu. Bəli, biz ağır günümüzdə də, şad günümüzdə də bir yerdə olmağı bacaran qardaşlarıq. Bu isə əsl qardaşlığın, sədaqətin əlamətidir".

***– Fırat bəy, Kahramanmaraş yenidən inşa edilir. Bu işdə Azərbaycanın da payı var. Bu barədə nə deyə bilərsiniz?***

– Qardaş Azərbaycan zəlzələnin ilk anlarından yanımızda oldu, hər cür köməyi göstərdi. Sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə Kahramanmaraşda bir çox binaların təməli atıldı. Artıq inşaat işləri tamamlanmışdır. Başımıza gələn bu faciə aramızdakı qardaşlıq bağını daha da gücləndirdi. Azərbaycan hökuməti şəhərin bərpa olunmasında yenə birincilərin sırasında oldu. Azərbaycan dövləti tərəfindən şəhərimizdə inşa edilən Heydər Əliyev məktəbi ötən tədris ilindən fəaliyyətə başladı. Zəlzələdən sonra şəhərin dağılmış mərkəzi hissəsində genişmiqyaslı tikinti işlərini də Azərbaycan apardı. Buranın adını "Azərbaycan məhəlləsi" qoyduq. "Azərbaycan məhəlləsi"ndə inşaat işləri sürətlə getdi. 3 hektar 20 sot sahədə salınan məhəllədə sakinlərin rahat yaşaması üçün hər cür infrastruktur yaradılıb. Burada inşa edilən 10 min mənzildə 50 min sakin yaşayacaq. Beynəlxalq standartlara cavab verən "Azərbaycan məhəlləsi"nin açılışına böyük qürur hissi ilə, yüksək səviyyədə hazırlaşmışıq. Məhəllədə yaşayış binaları ilə yanaşı, parkinqlər, məktəblər və sağlamlıq mərkəzi tikilib, yaşıllıq zolaqları salınıb. Kahramanmaraşın göbəyində yerləşən "Azərbaycan məhəlləsi" şəhərimizə yaraşan bir məhəllədir. "Azərbaycan" prospekti isə şəhərimizin ən gözəl yerlərindən birinə çevrilib.

***– Maraş dünyanın ən qədim yaşayış məskənlərindən biridir. Şəhər yenidən inşa edilərkən tarixi məkanlar necə qorunur?***

– Kahramanmaraş tarixi zənginliyi və mədəni müxtəlifliyi ilə Anadolunun əhəmiyyətli şəhərlərindən biri olaraq varlığını davam etdirir. Qədim və tarixi məkanlar özünün ilkin simasında bərpa edilir. Şəhərimizin tarixinə qısa nəzər salsaq görərik ki, Maraş ən qədim mədəniyyətləri özündə birləşdirən məkandır. Bu bölgədə yerləşən mağaralardakı tapıntılar yaşayış məskənlərinin neolit, tunc dövrlərinə aid olduğunu sübut edir. Xüsusilə, 2009-cu ildə Kahramanmaraşın mərkəzində aparılan qazıntılar zamanı eramızın 300–400-cü illərinə aid olduğu güman edilən Germanikiya şəhərinə aid mozaikaların tapılması bölgənin zəngin tarixi keçmişinə işıq salır.

Kahramanmaraş Hitit dövləti olan Qurqum Krallığının paytaxtı kimi tanınır. Eramızdan əvvəl 711-ci ildə Qurqum Krallığının Asurlar tərəfindən ilhaqı ilə Markas (indiki Kahramanmaraş) əyalət mərkəzinə çevrilib. Sonralar şəhərdə farslar, romalılar, bizanslılar, ərəblər, səlcuqlular, məmlüklər, dulkadiroğulları və osmanlılar hökmranlıq ediblər. XI əsrin sonlarında Anadolu türklərinin hakimiyyəti altına girəndə Kahramanmaraş monqollar tərəfindən işğal edildi. II Anadolu Bəylikləri dövründə Dulkadiroğullarının hakimiyyəti altına keçən şəhər 1515-ci ildə Osmanlı hakimiyyətinin təbəəliyini qəbul edib. 1915–1919-cu illərdə Osmanlı hakimiyyəti altında qalan Kahramanmaraş atəşkəs dövründə əvvəlcə ingilislər, sonra isə fransızlar tərəfindən işğal edilib. Fransızlarla birlikdə bölgəyə erməni hərbi legionu da girdi. Maraş əhalisi həmin illərdə böyük faciələr yaşadı.

***– Kahramanmaraş əhalisinin erməni zülmündən çox əziyyət çəkdiyi də tarixdən məlumdur…***

– Osmanlı İmperiyasının Birinci dünya müharibəsinə girməsindən istifadə edən ermənilər dövləti daxildən çökdürmək üçün işğalçı Qərb dövlətlərinin yanında yer aldılar, Türk Ordusuna arxadan zərbə vurdular. Onlar kəndlərə vəhşicəsinə hücumlar edir, bölgənin müdafiəsiz sakinlərini qətlə yetirirdilər. Maraş uzun illər savaş meydanına döndü. Birinci dünya müharibəsindən sonra Maraş şəhərini işğal edən Fransa ordusunun içindəki erməni legionu günahsız insanları qətlə yetirərək, əhalinin buradan çıxarıb hayları yerləşdirməyə çalışırdı. Yəni burada erməni dövləti qurmaq məqsədilə müsəlman əhalinin qətllərini təşkil edirdilər. Amma maraşlılar bu məkrli planın həyata keçməsinə imkan vermədilər, qəhrəmancasına savaşdılar. Kahramanmaraş Qurtuluş savaşında da göstərdiyi qəhrəmanlıq və müqaviməti ilə seçildi. Şəhər istiqlal savaşının bayraqdarlarından biri oldu. Məhz buna görə "Qəhrəman" adına layiq görüldü. Türkiyə Böyük Millət Məclisinin 1973-cü il fevralın 7-də verdiyi qərara əsasən şəhərin adı dəyişdirilərək "Kahramanmaraş" oldu.

Bu gün bizim tarixi şəhərimiz yaşadığı acıları arxada qoyub, yeni həyatına başlayır. Qürur duyuruq ki, can Azərbaycan bu həyatın bir parçası olacaq.

İndi şəhərimizdə bir "Azərbaycan məhəlləsi" var. Xalqımızın qəlbində isə böyük Azərbaycan sevgisi daim yaşayacaq.

***Qələmə aldı:***
***Qafar ÇAXMAQLI,***
***XQ-nin Türkiyə müxbiri***

# ABŞ Konqresində “erməni təəssübü”

(əvvəli 1-ci səhifədə)

Adları çəkilən bu iki şəxs dini təqib və azadlıqlarla bağlı müzakirələrdə ABŞ-ın əvvəlki administrasiyasının fəaliyyətini ciddi tənqid edib, ən əsası, Baydenin komandasının xüsusən ermənilərlər bağlı siyasətini pisləyib. Təsəvvür edin, Ermənistana və erməni məsələsinə görə bütün beynəlxalq hüquq normalarını heçə sayan, hər cür yaramazlıqlara əl atan da Birləşmiş Ştatların sabiq administrasiyası idi, indi tənqid olunan da. Görəsən, qoca Co ermənilər üçün başqa nə etməli idi? Nəzərə alaq ki, Baydenin rəhbərlik etdiyi komanda erməni təəssübünə söykənmiş bütün tədbirlər bir yana, fəaliyyətinin ən son günlərində Birləşmiş Ştatlarla Ermənistan arasında strateji müttəfiqlik münasibətlərinə dair sənədin ərsəyə gəlməsinə nail olmuşdu. Görünür, ermənilərin ənənəvi nankorluq xəstəliyi konqresmenlərə də keçib. Yaxud, onların yerli erməni lobbi və diaspor təşkilatlarından aldıqları rüşvətin həcmi o qədər böyükdür ki, hər cür cəfəngiyyatı özlərinə rəva bilirlər.

Ancaq konqresmenlər Q.Bilirakisi və K.Smiti ABŞ-ın yeni ermənipərəstləri də adlandırmaq olar. O mənada ki, onlar hakim Respublikaçılar Partiyasının təmsilçiləridirlər. Nə etmək olar, deyəsən, Birləşmiş Ştatlarda erməni təəssübü çəkən konqresmen və senatorların yetişdirildiyi xüsusi konveyer var. Belələri yağışdan sonra çıxmış göbələklər, alaq otları kimidirlər. Ortaya atdıqları məsələlər isə son dərəcə primitivdir. Əvvəldə onların qaldırdıqları bəsit mövzu barədə məlumat verdik və məsələyə yenidən qayıdacağıq. Hələlik isə onu bildirək ki, adları çəkilən konqresmenlər Azərbaycanla yanaşı, Türkiyəni də günahlandırmağı yaddan çıxarmayıblar. Axı ermənipərəstlərin ənənəvi klişeləri üçün Bakıya və Ankaraya birlikdə tənqid yağdırmaq və bu yolla tragikomik dramatizmi ən yüksək səviyyəyə qaldırmaq təmayülü var.

Beləliklə, Q.Bilirakis və K.Smit Türkiyəni qondarma “erməni soyqırımı”nı inkar etdiyinə, Azərbaycanı isə Qarabağda “etnik təmizləməyə” görə hədəfə alıblar. Bu mənada ikinci daha “irəli” gedib. O, çıxışında Bakıda olarkən Prezident İlham Əliyevlə görüşünü xatırlayıb. “Mən Əliyevlə onun ofisində iki dəfə üz-üzə görüşdüm və onun erməni xalqı ilə bağlı siyasətini, xüsusən də Qarabağda insan haqlarına yanaşmasını müzakirə etdim”, – deyən K.Smit əlavə edib ki, ABŞ Ermənistan xalqı ilə dostluğunu və əməkdaşlığını dərinləşdirməlidir.

Bəli, konqresmenin dövlətimizin başçısı ilə görüşdən gəldiyi qənaətdə problem var. Azərbaycan dövləti erməni xalqı ilə düşmənçilik tərəfdarı deyil ki, koqresmenlərin mənasız təəssübünə ehtiyac duyulsun. Ancaq Smit bildirdikləri ilə kifayətlənməyib, eyni zamanda, “gəlin bunu tamamilə aydınlaşdıraq” deyərək, Birləşmiş Ştatların ermənipərəst xəttinin daha da qətiləşməsinə yönələn çağırış səsləndirib. Maraqlıdır, Vaşinqton nəyi aydınlaşdıracaqmış? Bəlkə Smit bu fikirdədir ki, ölkəsi Cənubi Qafqaza qoşun yeritməli, Amerika əsgəri Ermənistanın tərəfində Azərbaycana qarşı döyüşməlidir?

Əlqərəz, bilavasitə Qarabağ ermənilərinin hüquqlarına, bölgənin erməni mədəni irsinə qarşı təhdidlərə və Azərbaycanda saxlanılan erməni məhbuslar məsələsinə gəlincə, mövzuya dair Q.Bilirakis və K.Smitlə yanaşı, Vaşinqtonda yerləşən “Ay Data” erməni komitəsinin icraçı direktoru Aram Ambaryan da söz alıb. O, ABŞ-ın hazırkı administrasiyanın Azərbaycana qarşı sanksiyalar tətbiq edəcəyinə, o cümlədən Azadlığa Dəstək Aktına ölkəmizə hərbi yardımı qadağan edən mənfur 907-ci düzəlişin şərtlərini yerinə yetirəcəyinə, Azərbaycanda saxlanılan erməni məhbusların azadlığa çıxmalarına və Qarabağın erməni əhalisinin ləyaqətlə geri qaytarılmasına səy göstərəcəyinə ümidvar olduğunu dilə gətirib: “Bu sammit koalisiya tərəfdaşlarının və xristian dostların dəstəyini Ermənistanı narahat edən problemlərin həllinə cəlb etmək üçün yaxşı fürsətdir”.

Göründüyü kimi, ABŞ ermənipərəstləri köhnə havalardadırlar. Onlar Ermənistan-Azərbaycan münasibətlərini, eyni zamanda, xristian təəssübkeşliyinin notlarına kökləmək yolunu tuturlar. Əslində, bu, dinlə bağlı tədbiri, yəni Beynəlxalq Dini Azadlıq Samnmitini siyasiləşdirmək, daha doğrusu, ona ekstremist ovqat gətirməkdən başqa bir şey deyil. Daha bir məqam isə odur ki, sammitin Birləşmiş Ştatlar Konqresində keçirilən müzakirəsinin sponsoru Amerika Erməni Assambleyasıdır. Ona görə də sözügedən qurumun nümayəndəsi Mariam Haloyana da tədbirdə sərsəmləmək üçün imkan verilib.

M.Haloyan bildirib ki, sammit icmalarla və qruplarla dialoq üçün yaxşı fürsətdir. Bunun nəticəsində onlar bir-birinin problemləri haqqında məlumatlı olurlar.



Ən əsası isə o deyib: “Biz son bir neçə ildə Qarabağda baş verən etnik təmizləmə və digər hadisələr barədə məlumatlılığı artırır və Azərbaycanın erməni irsinə, mədəni və dini abidələrinə qarşı soyqırımı siyasətini davam etdirdiyini vurğulayırıq”.

Sonda qeyd edək ki, ABŞ Konqresində ermənipərəst müzakirələr Ermənistanın baş naziri Nikol Paşinyanın Birləşmiş Ştatlara səfəri ilə eyni vaxtda olub. Deməli, heç nə təsadüfi xarakter daşımır. Məqsəd Ağ evin yeni sahibi – Prezident Donald Trampın diqqətini “erməni məsələsi”nə yönəltməkdir. Bu gün N.Paşinyan və komandasının üzvləri Azərbaycanla sülhdən danışırlar. Ancaq, hazırda birbaşa dilə gətirməsələr də, ənənəvi “fəaliyyət” xəttində hansısa dəyişiklik yoxdur. Qarabağda etnik təmizləmə, bölgənin erməni mirası, Azərbaycanda saxlanılan erməni məhbuslar. Bu cəfəngiyyatlar ölkəmizin ərazi bütövlüyünü və suveren haqlarını şübhələndirən məqamlardır. Necə deyərlər, “köhnə hamam, köhnə tas”.

Nəzərə alaq ki, Konqresdəki müzakirələr rəsmi İrəvanın xeyir-duası olmasaydı, reallaşmazdı. Yəni göbələk-konqresmenlər elə-belədən ortaya atılmazdılar. Yenidən belə qənaətə gəlirik ki, Ermənistan rəhbərliyi hərəkət və davranışlarında qeyri-səmimidir. Bu mövqe isə bütövlükdə Cənubi Qafqazda barış mühitinin formalaşmasını ciddi şəkildə əngəlləyir. Ümid edək ki, Tramp Administrasiyası İrəvanın və havadarlarının çaldıqlarına qol qaldırmayacaq.

***Ə.RÜSTƏMOV***
***XQ***

---

**Xalqların Demokratiya Partiyasının (HDP) təmsilçisi olan sabiq millət vəkili Haro Paylan bildirib ki, Ermənistanın güc toplayıb Azərbaycanla yenidən müharibə aparması üçün, azı, 3-5 il lazımdır. Ona görə də vaxt itirmədən sülh müqaviləsi imzalanmalıdır.**

Onun sözlərinə görə, bu müddət ərzində Ermənistan iqtisadiyyatını gücləndirməli və ordusunu möhkəmləndirməlidir. Dost ölkələr ilə əlaqələr yüksək səviyyəyə çatdırılmalıdır. Paylanın bu bəyanatı belə qənaətə gəlməyə əsas verir ki, Ermənistan həm silahlanmaqda, həm də Avropa İttifaqının ölkəsindəki missiyasının səlahiyyətlərini daha 2 il uzatmaqla militarist siyasət yürüdür. Bölgənin sülh və

# “100 il də keçsə Ermənistan bu cürətə sahib ola bilməyəcək”

## *Türkiyə Böyük Millət Məclisinin hay əsilli sabiq deputatı təxribat xarakterli proqnozla çıxış edib*



sabitliyə ehtiyacı olduğu bir vaxtda belə bir bəyanat Azərbaycana qarşı düşmənçilikdən başqa bir şey deyil.

Həm də Azərbaycan artıq Ermənistanın müstəqil siyasətinin olmamasına və onun üçün qərarların kənardan qəbul edilməsinə öyrəşib. Ölkənin baş naziri sülhdən danışır və ya kommunikasiyaların açılması barədə bəyanatlar verir, eyni zamanda, türklərə düşmən olan bir erməni hayların bədnam planlarından xəbər verir.

Nifrət, qəzəb və müharibə ritorikasını ehtiva edən belə bir bəyanatın verilməsi təəssüf doğurur. Bu, bir daha onu göstərir ki, ermənilər ilə sülh imzalamaq və əmin-amanlıq şəraitində yaşamaq asan olmayacaq.

Təəssüf ki, H.Paylan kimi insanlar Qərb, xüsusən də böyük ölkələr tərəfindən xidmətlərinə görə yüksək qiymətləndirilir. O, Türkiyə dövlətinin qanunverici orqanı kimi ali məclisində oturmasına baxmayaraq qondarma soyqırımı məsələsini dəfələrlə səsləndirib, Türkiyəyə qarşı ərazi iddiaları ilə bağlı sərsəm açıqlamalar verib. Bu davranışı ilə birbaşa PKK terror təşkilatına və erməni terror qruplarına xidmət edib. Özünü hüquq müdafiəçisi kimi qələmə verən bu şəxs özünün xəstə təxəyyülündə Ermənistanı silahlandırmaqla yenidən müharibəyə atılmasını və dağıdılmasını təhlil edir.

Tarix göstərir ki, Haro Paylan kimi ikiüzlü ermənilər qazdıqları quyuya sonda özləri düşürlər.

**Mövzu ilə bağlı XQ-yə açıqlama verən “Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi icmalçı Elxan Şahinoğlu** bildirdi ki, Haro Paylan Ermənistandakı durumu təsəvvür edə bilmir: “O, Türkiyədə yaşayır və elə bilir ki, Ermənistanın Azərbaycanla yeni savaşa girməyə gücü var. Əgər yenidən müharibə olarsa, yenə Ermənistan məğlub olacaq. Əhali sayımız çox, iqtisadiyyatımız yüksələn xətt üzrə inkişaf edir. Əlavə olaraq, Azərbaycanın Türkiyə ilə strateji müttəfiqlik sazişi var. Azərbaycana qarşı təxribat Türkiyəyə qarşı təxribat deməkdir. Bunu Paylan da yaxşı anlamalıdır”.

E.Şahinoğlu sözlərinə onu da əlavə etdi ki, Paylanın fikirləri təxribat xarakteri daşıyır: “Deyir ki, 3-5 il keçsin və özünə gələndən sonra Ermənistan Azərbyacana cavab verəcək. Yüz il də keçsə Ermənistan bu cürətə sahib ola bilməyəcək. Biz torpaqlarımızı azad etmişik, Qarabağ üzərində suverenliyimizi bərpa etmişik. Şərti sərhəddə strateji yüksəkliklərə sahibik. Təxribat baş versə, həmin yüksəkliklərdən Ermənistanın bütün hərbi hissələrini, hava limanlarını darmadağın etmək iqtidarındayıq.

Amma Paylan, Köçəryan, Sarkisyan kimi avantürüstlər düşünürlər ki, 5–10 il keçəcək Ermənistan güclənəcək və Azərbaycanın cavabını verəcək. Anlamırlar ki, Ermənistan təxribata əl atsa, bu dəfə dövlət kimi xəritədən silinəcək. Azərbaycan artıq öz əzəli, tarixi torpaqlarını tam olaraq geri qaytaracaq”.

Paylanın fikirlərinə Ermənistanda faşist təxəyyülündə olan bəzi qrupların da dəstək verdiyinə diqqət çəkən politoloq reallığı anlayanın elə Paşinyanın özü olduğunu dedi: “Amerikada bu reallığı anladıb ki, artıq Türkiyə və Azərbaycan ilə məsələləri sülh yolu ilə həll etməyin vaxtıdır. Ermənistanın baş naziri Nikol Paşinyan İkinci Qarabağ müharibəsindən və Azərbaycanın Qarabağda həyata keçirdiyi bir günlük anti-terror əməliyyatından sonra bölgədə formalaşan reallıqları anlamağa başlayıb. O, Azərbaycanın ərazi bütövlüyünü tanımağa məcbur qalıb, Minsk qrupundan imtina edib, “soyqırımı tanıtma” siyasətinin Ermənistana faydası olmadığını bildirib. Üstəgəl, Zəngəzur dəhlizinin açılmasının yubadılmasının Ermənistanın ziyanına olduğunu anlamağa başlayıb”.

Vəziyyəti fərqli şəkildə təhlil etməyi bacaran Paşinyan Azərbaycan və Türkiyə ilə düşmənçiliyin Ermənistanı uçuruma apardığının fərqindədir. O, bircə addım ataraq konstitusiyada zəruri dəyişikliklərə getməklə sülh sazişinin imzalanmasını təmin edə bilər. Ancaq onu da unutmamalıyıq ki, Paşinyandan sonra hakimiyyətə revanşistlər gələrsə, onlara yenidən reallıqları anlatmaq məcburiyyətində qala bilərik.

***Azər MUSTAFAYEV***

---

**ABŞ-ın indiki hakimiyyəti Beynəlxalq İnkişaf Agentliyinin (USAID) fəaliyyətindən çox narazıdır. Bu, Dövlət Departamentinin məlumatında aydın hiss olunur: “USAID uzun müddətdir ki, xaricdə ABŞ-ın maraqlarını məsuliyyətlə inkişaf etdirmək üzrə qoyulan ilkin missiyasından uzaqlaşıb”. Bu səbəbdən USAID-in fəaliyyəti məhdudlaşdırılıb və ona müvəqqəti rəhbərlik Dövlət katibi Marko Rubioya həvalə olunub.**

# ABŞ-ı dünyada biabır edən təşkilat

## *USAID-dəki MKİ əməkdaşları Latın Amerikasında hərbi çevrilişlərin təşkilində iştirak ediblər*



USAID-in illik büdcəsi 42,8 milyard dollardır. 2024-cü maliyyə ilində agentlik bu vəsaitin 35,44 milyard dollarını müxtəlif layihələrin maliyyələşməsinə xərcləyib. Layihələr arasında siyasi qrupların və qeyri-hökumət təşkilatlarının dəstəklənmnməsi də var. Bu baxımdan, casusluq və gizli əməliyyatlar da məhz təşkilatın çətiri altında həyata keçirilib. Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) keçmiş direktoru Con Gilliqan deyib ki, USAID-ə yuxarıdan aşağıya, xaricdə könüllü kimi fəaliyyətdən dinə qədər bütün sahələrdə MKİ agentləri yerləşdirilib. Yəni USAID mahiyyət etibarilə MKİ-nin alt strukturu kimi çalışıb.

Ölkənin hərbi və kəşfiyyat dairələri USAID-dən ABŞ-ın dost saymadığı ölkələrdə mövcud ictimai-siyasi quruluşun dəyişməsi üçün “yumşaq güc”, “rəngli inqilab”lar həyata keçirmək üçün istifadə edib. Belə aksiyalara zəmin yaratmaq üçün isə illərlə həmin ölkələrdəki qeyri-hökumət təşkilatlarına, vətəndaş cəmiyyətinə, mediaya və sair sahələrə dəstək adı altında çoxmilyonlu qrantlar ayrılıb, vəsaitlərin xərclənməsi ilə bağlı şəffaflıq pozulub. USAID Cənubi Qafqazda da məkrli planlar həyata keçirib. Gürcüstanda siyasi qarışıqlıq üçün fəaliyyət göstərib. Radikal yönlü partiyaları, qurumları maliyyələşdirib. Ölkədə sabitliyi pozmağa, prosesləri öz istədiyi məcraya yönəltməyə çalışıb, ölkə daxilində ictimai rəyə təsir etmək niyyəti güdüb. Agentlikdən maliyyə dəstəyi alan partiya və QHT-lər çox təhlükəli oyun oynayır, Qərbin tapşırıqlarını yerinə yetirərək Gürcüstanda qarışıqlıq yaratmağa çalışırlar. Bu barədə danışan Tbilisi şəhərinin meri, hakim “Gürcü Arzusu–Demokratik Gürcüstan” partiyasının baş katibi Kaxa Kaladzeyə görə, Gürcüstanda radikalizm və faşizm sona çatacaq: “Çünki radikalizmi və faşizmi maliyyələşdirən, bu ideologiyanı təşviq edən qüvvələr tədricən tarixdən silinib gedəcəklər”.

* * *

USAID-in məkirli fəaliyyətinə dünyanın hər yerində rast gəlinir. Məsələn, MKİ-nin və agentliyin əməkdaşları son onilliklərdə Latın Amerikasında bütün hərbi çevrilişlərdə iştirak ediblər. Cənubi Amerikada 146 dövlət çevrilişi cəhdi olub ki, onun da 70-i baş tutub. Hərbi çevrilişin səbəbkarı isə USAID olub. Çevrilişə hazırlıq zamanı müxalifət liderlərinə müvafiq təlimlər keçilib, maliyyələşdirilməsi təmin edilib. Siyasi-ideoloji və texniki dəstək verilib. Eyni zamanda, Agentlik kritik vəziyyətlərdə təhlükəsizlik qüvvələrinin “modernləşdirilməsi və reabilitasiyası” istiqamətində ciddi işlər görüb. Müxalifətə silahlı dəstək üçün agentlər cəlb edilib. Bunlar ondan xəbər verir ki, ABŞ demokratiya adı altında başqa dövlətlərin siyasətinə təsir göstərməklə öz məqsədlərini reallaşdırmaq məqsədi güdüb.

Məhz USAID-in dəstəyi ilə Çilidə 1973-cü il sentyabrın 11-də baş tutmuş hərbi çevriliş unudulmayıb. Çili Prezidenti Salvador Alyendenin demokratik yolla seçilmiş hökuməti general Auqusto Pinoçetin başçılıq etdiyi hərbi çevriliş nəticəsində devrilib. Çünki ABŞ sosialist Salvador Alyendenin hakimiyyətə gəlməsindən narazı idi. Onun mis sənayesinin üzərində dövlət nəzarətini bərpa etmək cəhdləri Vaşinqtonun maraqlarına toxunurdu. Bu səbəbdən ABŞ Salvador Alyendenin hakimiyyətdən salınması yolunda məxfi planlar hazırlamağa başladı. 1970-ci illərdə MKİ Salvador Alyendenin siyasi rəqiblərini maliyyə yardımı edərək dəstəklədi. Aydındır ki, bu, USAID kimi qurumlar tərəfindən həyata keçirilirdi. Hərbi çevrilişlərə məruz qalan ölkələrin siyahısına Qvatemala, Salvador, Ekvador, Argentina, Paraqvay da daxildir.

USAID Venesuela və Boliviyanın daxili işlərinə də qarışır. Dəfələrlə bu ölkələrdə qarışıqlıq yaratmağa cəhd edilib. Xüsusilə seçkilərin nəticələrinin saxtalaşdırıldığı barədə məlumatlar yayıb, insanları etiraz aksiyalarına çağırıb. Venesuela Prezidenti Nikolas Maduro dəfələrlə ABŞ-ın dünyanın digər ölkələrinin daxili işlərinə müdaxilə siyasətinin qəbuledilməz olduğunu bəyan edib. Bu cür müdaxilələrin nəticəsidir ki, bəzi dövlətlər USAID-i daxili işlərinə müdaxilə etdiyi üçün ölkədən çıxarıb. Məsələn, Rusiya, Boliviya və Venesuela agentliyin fəaliyyətini məhdudlaşdırıb. Qurumun əməkdaşları Çin, İran və digər dövlətlərdən biabırçıcasına qovulublar.

Eyni zamanda, USAID hərbi çevrilişlər hazırlamaqdan əlavə korrupsiya mənbəyi rolunu oynayıb. Meksika Prezidenti Klaudiya Şeynbaum mətbuat konfransında deyib: “Agentlik tədqiqat layihələrindən tutmuş hökumətlərdəki müxalifət qruplarına qədər hər şeyi maliyyələşdirib. Meksikada “Korrupsiya üçün meksikalılar” təşkilatı bu qurumdan dəstək alıb”. Meksika liderinin sözlərinə görə, ABŞ başqa ölkələrə yardım və dəstək vermək niyyətindədirsə, şəffaf olan başqa kanallar açmalıdır. Dövlət katibi Marko Rubio isə San-Xosedə Kosta-Rika Prezidenti Rodriqo Çaveslə birgə mətbuat konfransında çıxışı zamanı qeyd edib ki, ABŞ yardımının yalnız 10-13 faizi nəzərdə tutulan alıcıya çatır: “Qalanı isə əlavə xərclərə və bürokratiyaya gedib”.

* * *

USAID-in məkrli siyasəti Azərbaycandan da yan keçməyib. Bu qurum Bakıdakı şəbəkəni Gürcüstan üzərindən maliyyələşdirmək cəhdlərini davam etdirir. “Meydan TV” işi ilə bağlı ortaya çıxan son faktlar USAID-in Azərbaycandakı şəbəkəsini yenə də Gürcüstan üzərindən maliyyələşdirməyə davam etdiyini təsdiqləyir. Araşdırmalar nəticəsində məlum olub ki, “Meydan TV”nin maliyyələşməsini həyata keçirən Almaniyada qeydiyyatdan keçirilmiş “Demokratiya Uğrunda Assosiasiya” adlı QHT-dir. Onun ABŞ vətəndaşı olan rəhbəri Metyu Kasper vəsaiti Gürcüstan banklarına transfer edir, daha sonra turist, yaxud müxtəlif adlar altında Tbilisiyə gedən “Meydan TV” əməkdaşları həmin pulları nağdlaşdıraraq, ölkəyə gətirirlər. Bu faktlar Qərbin Azərbaycandakı şəbəkəsinin maliyyələşməsində Gürcüstanın platforma kimi istifadə edilməsi cəhdlərinə hələ də son qoyulmadığını göstərir.

**Mövzu ilə bağlı XQ-yə açıqlama verən ekspert Əfsun Sucayev** USAID-in 1991-ci ildən başlayaraq Azərbaycanda fəaliyyət göstərdiyinə diqqət çəkdi: “Qurumun missiyası zəif inkişaf etmiş, ehtiyacı olan ölkələrə dəstək verməkdir. O dövrdə USAID -in Azərbaycanda fəaliyyəti anlaşılan idi. Amma sonrakı dövrlərdə bu qurumun fəaliyyəti dəyişikliyə məruz qaldı. 2023-cü ilin sentyabrında Azərbaycan 23 saatlıq antiterror əməliyyatı keçirərək suverenliyini bərpa etdi. Bundan qısa müddət sonra ABŞ-dan Azərbaycana qarşı beynəlxalq hüquqla uzlaşmayan hücumun şahidi olduq. 1992-ci ildə ABŞ Konqresi tərəfindən Azadlığa dəstək haqqında akta əlavə edilən və Azərbaycana ABŞ-ın birbaşa dövlət yardımını qadağan edən 907-ci düşəliş qəbul edildi. 2001-ci ildə 11 sentyabr hadisələrindən sonra Azərbaycanın beynəlxalq terrorizmlə mübarizədə dəstəyini təmin etmək məqsədilə ABŞ Konqresi prezidentə düzəlişin hüquqi qüvvəsini dayandırmaq səlahiyyəti verdi. Amma 2023-cü ildə Azərbaycan suverenliyini bərpa etdiyi üçün yenidən “cəzalandırıldı”. 907-ci düzəliş qüvvəyə mindi. Yadınızdadırsa, USAID rəhbəri Samanta Pauer Ermənistanın tərəfini saxlamışdı. O, “X” sosial şəbəkədə paylaşdığı videoda hərbi əməliyyat nəticəsində 100 min erməninin Qarabağı tərk etdiyini və ABŞ-ın onlarla həmrəy olduğunu demişdi. Halbuki, onlar Qarabağı könüllü tərk etmişdilər. ABŞ-ın köçkünlərə əlavə 4 milyon dollar həcmində humanitar yardım ayırdığını elan edən Samanta Pauer köçkünləri qəbul etdiyi və onlara yardım göstərdiyi üçün Ermənistan hökumətinə minnətdarlığını vurğulamışdı. Hesab edirəm ki, USAID-in fəaliyyətinin dayandırılmasının vaxtıdır. Çünki bu qurum Azərbaycanın maraqlarını nəzərə almır və yalnız öz maraqlarından çıxış edir. USAİD-in Azərbaycanda mövcudluğunun və təmsilçiliyinin davam etdirilməsinə ehtiyac yoxdur və fəaliyyətinin tam dayandırılmasının vaxtı yetişib”.

Sonda onu da qeyd edək ki, Beynəlxalq İnkişaf Agentliyi hərbi çevrilişləri dəstəkləməklə yanaşı, COVID-i, bioloji silahları da maliyyələşdirib. ABŞ Hökumətinin Effektivliyi İdarəsinin rəhbəri İlon Mask USAID-i bioloji silahların hazırlanmasını maliyyələşdirməkdə ittiham edib. O, bu barədə “X” hesabında yazıb: “USAID-in sizin vergi pullarınızdan istifadə edərək milyonlarla insanın ölümünə səbəb olan COVID-19 da daxil olmaqla bioloji silahların inkişafını maliyyələşdirdiyini bilirdinizmi?”. İlon Mask USAID-i “beynəlxalq cinayətkar təşkilat”adlandırıb. İndi, o, federal hökumətdə dələduzluq, səmərəsiz xərclər və sui-istifadə hallarının aradan qaldırılması ilə məşğul olacaq.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

Günün mövzusu

# Tərəqqinin böyük yolu təhsildən keçir

## *Müəllim isə gələcəyin mənəvi memarıdır*

**Təhsil cəmiyyətin ümumi inkişafını və gələcək tərəqqisini təmin edən əsas sahələrdən biri, müəllim isə mənəvi təkamülə təkan verən qüvvədir. XXI əsrdə bu sferanın başlıca vəzifəsi bilikli, innovativ düşüncəli və qlobal çağırışlara uyğunlaşa bilən insan kapitalını formalaşdırmaqdır.**

### Yeni təhsil çağırışları

"Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də bildirilir: "Güclü təhsil hesabına yüksək peşə bacarıqlarına malik insan kapitalı yaratmaq üçün ali təhsil müəssisələrinin beynəlxalq səviyyədə keyfiyyət baxımından rəqabətədavamlığı təmin olunmalıdır". Təhsili inkişaf etdirməyin əsas şərtləri isə müasir yanaşmaların tətbiqi, keyfiyyətli müəllim hazırlığı və yeni dövrün tələblərinə uyğun təhsil modelinin yaradılmasıdır. Bu mövzular bu gün təkcə Azərbaycanda deyil, bütün dünyada aktuallığını qoruyur.

Xüsusilə, tarixi Zəfər qazandıqdan sonra ölkəmiz, eləcə də təhsilimiz qarşısında yeni vəzifələr və çağırışlar meydana çıxdı. BMT-nin 2030-cu il üçün müəyyən etdiyi Dayanıqlı İnkişaf Məqsədləri, "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" strategiyası, Böyük Qayıdış Proqramı, Qarabağ və Şərqi Zəngəzura həyatın yenidən qayıtması, bu bölgələrdə təhsilin bərpa edilməsi – bütün bunlar gələcək inkişaf yolumuzun əsas istiqamətlərini müəyyənləşdirir.

Azərbaycan artıq beynəlxalq arenada öz gücünü sübut edib. Ötən il ölkəmiz dünyanın ən mötəbər tədbirlərindən biri – COP29-a ev sahibliyi etdi. Bu qlobal tədbirdə aparılan müzakirələr və əldə edilən razılaşmalar sübut etdi ki, Azərbaycan yalnız regionda deyil, dünyada da dayanıqlı inkişafın fəal iştirakçılarından biridir.

Bütün bu yeniliklər və strateji hədəflər isə təhsil sistemimizin qarşısına mühüm vəzifələr qoyur. "Qüdrətli dövlət və yüksək rifah cəmiyyəti" konsepsiyası bizdən təkcə mövcud reallıqlara uyğunlaşmağı deyil, həm də yaranan yeni fürsətlərdən istifadə edərək təhsilimizi daha da inkişaf etdirməyi tələb edir. Sabahın bilikli, səriştəli, yenilikçi gənclərini yetişdirmək üçün biz mövcud metodları bir daha nəzərdən keçirməli, təhsilin məzmununu yeni dövrün tələblərinə uyğun qurmalıyıq. Bu gün qarşımızda duran əsas vəzifə – keyfiyyətli təhsil vasitəsilə ölkəmizin gələcəyini daha da parlaq etməkdir.

### Yenilikçi müəllim hazırlığı

Cəmiyyətin ümumi inkişafı, bütün sahələrdə tərəqqi ilk növbədə güclü və keyfiyyətli təhsil sistemindən asılıdır. Təhsilin təməlini isə müəllim hazırlığı təşkil edir. Beynəlxalq tədqiqatlar, xüsusilə PISA nəticələri də sübut edir ki, müasir dövrdə artıq yalnız maddi-texniki baza və maliyyə imkanları deyil, tədris prosesinin əsas icraçıları olan müəllimlərin səriştə və peşəkar bacarıqları həlledici rol oynayır.

Bu reallıq bizə bir mühüm həqiqəti göstərir: Gələcəyin müəllimləri hansı dəyərlər və yanaşmalar əsasında yetişdiriləcəksə, sabahın təhsili də o dəyərləri əks etdirəcəkdir. Müasir dövrdə müəllim yalnız bilik ötürən deyil, öyrətməyi öyrədən, istiqamət verən, motivasiya yaradan əsas qüvvədir. Artıq təkcə faktları ötürmək deyil, qabaqlayıcı təlim bacarıqlarına sahib olmaq, fasilitator kimi çıxış etmək və yumşaq səriştələri mənimsəmək müəllim peşəsinin ayrılmaz hissəsinə çevrilib.

Bu gün biz anlayırıq ki, yenilikçi müəllim hazırlığı olmadan keyfiyyətli təhsildən danışmaq mümkün deyil. Deməli, gələcəyin qurucuları olan müəllimlərimizi necə yetişdirəcəyimiz, onları hansı bilik və bacarıqlarla "silahlandıracağımız" birbaşa cəmiyyətimizin inkişafına təsir edəcək ən vacib məsələlərdən biridir.

### İnnovativ yanaşmalar

Dünyanın hər yerində olduğu kimi, Azərbaycanda da təhsil sisteminin daim yenilənməsi və sürətli dəyişikliklərə uyğunlaşması prioritet məsələlərdən biridir. Xüsusilə müəllim hazırlığında innovativ yanaşmaların tətbiqi əsas hədəflərdən biri kimi qarşıya qoyulub. Çünki təhsilin keyfiyyəti birbaşa olaraq müəllimin peşəkarlığından asılıdır. Məhz buna görə də ölkəmizdə bu istiqamətdə sistemli və ardıcıl addımlar atılır.

Son 25 ildə həyata keçirilən islahatlar iki əsas mərhələdən keçib. İlk mərhələdə hüquqi və nəzəri baza yaradıldı, müasir kurikulumlar tətbiq olundu. Sonrakı dövrdə isə müəllimlərin peşəkar bacarıqlarını ölçmək və daim inkişaf etdirmək üçün konkret mexanizmlər formalaşdırıldı. Müəllimlərin İşə Qəbulu (MİQ) imtahanları, diaqnostik qiymətləndirmə və sertifikasiya prosesləri məhz bu məqsədlə həyata keçirilən addımlardır. Əgər ilk mərhələ təhsilin hüquqi və nəzəri əsaslarını gücləndirirdisə, ikinci mərhələ müəllimlərin keyfiyyət göstəricilərini artırmaq və onların peşəkar inkişafını təmin etmək üçün taktiki həllər təqdim etdi.

Bu gün isə artıq islahatların üçüncü – ən vacib mərhələsinə keçid edirik. Prezident İlham Əliyevin imzaladığı Dövlət Proqramları, müxtəlif fərman və sərəncamlar nəticəsində müəllim hazırlığında dayanıqlı və yüksək keyfiyyət mərhələsinə qədəm qoymuşuq. Artıq yalnız müəllimlərin bilik səviyyəsinin ölçülməsi deyil, yeni dövrün tələblərinə uyğun bacarıq və səriştələrin dəqiq müəyyənləşdirilməsi əsas prioritetə çevrilib.

Bu baxımdan müəllim hazırlığının mərkəzi sayılan Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) aparılan işlərə və əldə edilən nəticələrə nəzər salmaq xüsusilə əhəmiyyətlidir.



### Pedaqoji Universitet – milli təhsil mərkəzi

Azərbaycan Dövlət Pedaqoji Universiteti ölkədə müəllim hazırlığının əsas mərkəzi kimi fəaliyyətini daha da gücləndirərək 2024–2025-ci tədris ilinə bir sıra mühüm yeniliklərlə start verib. Bu yeniliklər ölkəmizdə müəllim hazırlığının daha keyfiyyətli və beynəlxalq standartlara uyğun həyata keçirilməsi məqsədilə atılan ardıcıl addımların davamıdır. Universitetdə tədrisin keyfiyyətini artırmaq, beynəlxalq əlaqələri genişləndirmək və tələbələrin inkişafını dəstəkləmək məqsədilə intensiv işlər aparılır.

Bu istiqamətdə tələbələrlə müntəzəm sorğuların keçirilməsi, xarici universitetlərlə yeni ikili diplom proqramlarının imzalanması, beynəlxalq reytinqlərdə universitetin mövqeyini yüksəltmək üçün işlərin gücləndirilməsi, e-universitet sisteminin genişləndirilməsi, ixtisasların proqram akkreditasiyasına başlanılması (artıq bakalavriat və magistratura səviyyələri üzrə 3 ixitsas və ixtisaslaşma üzrə proqram akkreditasiyası uğurla tamamlanıb, digər ixtisas və ixtisaslaşmalar üzrə proses uğurla davam etdirilir) və "ADPU 2030" Strateji İnkişaf Planının qəbul olunması xüsusi əhəmiyyət kəsb edir.






2024-cü ildə ADPU-nu bitirən 2 min 317 bakalavr məzunun 812-si magistraturaya qəbul olunub ki, onların 56 nəfəri, eyni zamanda, əmək fəaliyyətini davam etdirir. Bundan əlavə, 72 məzun isə xaricdə bakalavr, magistratura və doktorantura səviyyələri üzrə təhsilini davam etdirmək üçün müraciət edib. Bu göstəricilər ADPU-nun məzunlarını beynəlxalq səviyyədə tanınan və rəqabətədavamlı kadrlar kimi yetişdirdiyini sübut edir. Məzunların 984 nəfəri MİQ imtahanlarında uğur qazanıb və hazırda onlardan 551 nəfəri dövlət ümumtəhsil müəssisələrində müəllimlik fəaliyyəti göstərirlər.

142 nəfər məzun dövlət orqan və müəssisələrində, 308 nəfər özəl təhsil müəssisələri və şirkətlərində çalışmağa başlayıb. Ümumilikdə, əmək bazarına çıxan məzunlardan 1000 nəfərdən çoxunun işlə təmin edilməsi (83,7 faiz), həmçinin ixtisas üzrə məşğulluq səviyyəsinin 85,8 faizə çatması ADPU məzunlarının əmək bazarında yüksək rəqabət qabiliyyətinə malik olduğunu göstərir.

2024–2025-ci tədris ili üçün ADPU-nun bakalavriat səviyyəsində qəbul planı 99, magistratura səviyyəsində isə 100 faiz dolub. 2024–2025-ci tədris ili üzrə ali məktəblərə tələbə qəbulunun nəticələrinə əsasən Pedaqoji Universitet və onun filiallarında 13 ixtisasın dövlət sifarişi üzrə keçid balı 500-dən yüksək olub. Bunlar arasında ən aşağı keçid balı 501,3 bal, ən yüksək keçid balı isə 606,9 bal təşkil edib. 2024–2025-ci tədris ili üçün ADPU-da ixtisaslar üzrə orta qəbul balı 382,6 bal olub.

Cari ildə pedaqoji ixtisaslarda ölkə üzrə ümumi plan yerləri 595 nəfər azalsa da, ADPU üzrə plan yerlərinin sayı 85 nəfər artırılıb. Ümumilikdə, ölkə üzrə pedaqoji ixtisasların plan yerlərinin 34 faizi ADPU-nun (filiallarla birlikdə) payına düşür. Ümumən, ölkəmizdə 21 ali təhsil müəssisəsində pedaqoji kadr hazırlığı həyata keçirilir.

2024-cü ildə ADPU-ya qəbul olunanların 80 faizi (2 min 121 nəfər) 300-dən, 48 faizi (1252 nəfər) 400-dən, 12 faizi isə (314 nəfər) 500-dən yüksək bal toplayanlardır. Həmçinin qəbul olunanlar arasında 8 nəfəri 600 baldan yüksək nəticə göstərib, 6 nəfəri isə beynəlxalq idman uğurlarına görə müsabiqədənkənar qaydada ADPU-ya qəbul olunub. Eləcə də 600 baldan yüksək nəticə göstərən 5 nəfər ADPU-nun filiallarına qəbul olunublar. ADPU-ya qəbul olunan tələbələrin 1551 nəfəri (59,06 faiz) dövlət sifarişi əsasında qəbul olunub, ödənişli əsaslarla qəbul olunanlardansa 166 nəfəri (6,3 faiz) isə təhsil haqqına güzəşt hüququndan istifadə ediblər.

Beləliklə, ümumilikdə, ADPU cari tədris ili üçün qəbul olunan tələbələrin 65,4 faizi dövlət hesabına təhsil alır. Ödənişli təhsil alan tələbələrdən 134 nəfəri (12,5 faiz) təhsil tələbə kreditinə müraciət edib.

Universitet 2024–2025-ci tədris ilində yeni ixtisas və ixtisaslaşmaları tədris prosesinə daxil edib. İlk dəfə bakalavriat səviyyəsində Filologiya (Azərbaycan dili və ədəbiyyatı) ixtisasına qəbul həyata keçirilib. Magistratura səviyyəsində isə Təhsildə qiymətləndirmə və monitorinq (SABAH) və Menecment (Ali təhsilin təşkili və idarə olunması) (SABAH) ixtisaslaşmalarına ilk qəbul baş tutub. Hazırda ADPU-da bakalavriat səviyyəsində 25, magistratura səviyyəsində 22 ixtisas üzrə 30 ixtisaslaşma mövcuddur.

Doktorantura səviyyəsində isə universitet 33 ixtisas üzrə yüksəkixtisaslı elmi-pedaqoji kadr hazırlığını həyata keçirir. Bundan əlavə, 2024-cü ildə tələbələrin liderlik və idarəetmə bacarıqlarını inkişaf etdirmək məqsədilə "Pedaqoji Universitetin Gələcək Təhsil Liderləri" müsabiqəsinə start verilib. Müsabiqəyə 900 nəfərə yaxın tələbə qatılıb, onlardan seçilən 20 nəfər universitetin idarəetmə komandası ilə mentorluq proqramına cəlb olunub. 2025-ci ildə də müsabiqənin davam etdirilməsi planlaşdırılır.

2024-cü ildə ADPU-da e-universitet sisteminin genişləndirilməsi istiqamətində yeni mərhələyə start verilib. Artıq tələbələr şəxsi kabinetləri vasitəsilə akademik göstəricilərini izləyə, layihə və tapşırıqları elektron qaydada təqdim edə, e-kitabxana və tədris platformalarından yararlana bilirlər. Ötən il ADPU-nun e-kitabxanasına 34 min müraciət daxil olub.

Universitetdə İnformatika müəllimliyi ixtisasının tələbələri üçün "Lütfi Zadə adına təqaüd"ün təsis olunması ilə ADPU-dakı adlı təqaüdlərin sayı 14-ə çatdırılıb. Eləcə də elmi-tədqiqat fəaliyyətinin genişləndirilməsi və beynəlxalq əməkdaşlıq sahəsində də xeyli uğurlar əldə olunub. Belə ki, SCOPUS elmmetrik bazasında 1994-2024-cü illər üzrə ADPU alimlərinin 397 məqaləsi yer alıb ki, bunların 333-ü 2016-2024-cü illləri əhatə edir.

ADPU-nun SCOPUS elmmetrik bazasında indekslənmiş jurnallarda çap olunan məqalələrinin ən yüksək göstəricisi isə 2020-ci il üzrə qeydə alınıb. Həmin il universitet əməkdaşlarının 56 elmi məqaləsi SCOPUS-da indekslənən jurnallarda dərc olunub. 2024-cü il üzrə SCOPUS elmmetrik bazasında indekslənmiş jurnallarda çap olunan məqalə sayı isə 50-dir.

2024-cü ildə ADPU-da ibtidai sinif müəllimliyi ixtisasının proqram akkreditasiyası həyata keçirilib və növbəti mərhələdə bütün ixtisaslar üzrə proqram akkreditasiyası həyata keçiriləcəkdir. Hələ 2020-ci ildə Pedaqoji Universitetin öncüllüyü ilə pedaqoji ixtisaslar üzrə tədris planları tamamilə yenilənmiş, eləcə də tədris planlarına dövrün tələblərinə uyğun olaraq inklüziv təhsil, STEAM kimi fənnlər də daxil edilmişdir. Bunlarla yanaşı, ötən ildən etibarən pedaqoji internaturanın tətbiqinə start verilmişdir.

Son 3 ayda İstanbul Universiteti və Moskva Dövlət Pedaqoji Universiteti ilə əməkdaşlıq müqavilələri imzalanmışdır. ADPU-nun Keyfiyyət Təminatı siyasəti (2022), Beynəlmiləşmə siyasəti (2022), Dayanıqlı İnkişaf Siyasəti (2024) və İnklüziv Təhsil siyasəti (2024) kimi sənədlər qəbul olunub.

Universitetdə tələbələr arasında tədbirlərin təşkili və tələbələrlə iş və keyfiyyətin təminatı şöbələri müntəzəm sorğular təşkil edir, onların tətbiq olunan yeniliklərə, imtahan prosesinə, ümumi əlçatanlığa və s. aid fikirləri toplanaraq analiz olunur. 2023–2024-cü tədris ilinin yaz semestrinin imtahan sessiyasının təşkili ilə əlaqədar ADPU, onun filialları və Pedaqoji Kollecin, ümumilikdə, 3 min 654 nəfər tələbəsi arasında keçirilmiş sorğunun nəticələrinə əsasən respondentlərin 72 faizindən çoxu imtahanlarda 71 baldan yüksək, 26,4 faizi isə 91 baldan yüksək nəticə göstəriblər. İştirakçıların 80 faizə qədəri imtahanların şəffaflığını 10 ballıq sistem üzrə 7-10 bal aralığında, 45 faizə qədəri isə 9-10 bal aralığında qiymətləndiriblər.

Onlardan 81 faizə qədəri imtahanla bağlı apellyasiyaya müraciət etməyiblər. Tələbələrin 35 faizindən çoxu imtahan dönəmində ADPU-da fəaliyyət göstərən psixoloji xidmətdən yararlanıb. 88 faiz iştirakçı imtahan nəzarətçilərinin davranışından razı olduğunu qeyd edib. Ümumi rəyə əsasən, tələbələr şifahi imtahan formasını daha çox dəstəkləyirlər.

2024–2025-ci tədris ilində ADPU-ya qəbul olan tələbələr arasında aparılan sorğunun nəticələrinə görə, 423 nəfər I tədris ili tələbəsinin iştirak etdiyi sorğuda respondentlərin 70,4 faizi müəllim olmaq üçün, 16.5 faizi isə rahat təhsil mühitinə görə ADPU-nu seçiblər. İştirakçıların 72 faizi ixtisas seçimində ADPU-nu ilk 3 yerdə qeyd etdiklərini, 92,4 faizi isə ilk turdan ADPU-ya qəbul olduqlarını vurğulayıblar.

Tələbələrin 83 faizindən çoxu məzun olduqdan sonra müəllim kimi fəaliyyət göstərəcəklərini qeyd ediblər. Həmçinin sorğu iştirakçılarının 90 faizi universitetdə xarici dil seçimində ingilis dilinə üstünlük verirlər. Sorğuya qatılanların 63 faizi ADPU haqqında ilk məlumatı sosial media hesablarımızdan (42,3 faiz) və rəsmi saytımızdan (20,8 faiz), 29 faizi isə tələbələri (18,7 faiz) və məzunlarımızdan (14,4 faiz) əldə etdiklərini bildiriblər.

### Yenilikçi müəllim – keyfiyyətli gələcək!

Bu gün əldə olunan nailiyyətlər qürurvericidir. Amma biz irəli baxmalıyıq. Müasir dünyada müəllim hazırlığı təkcə tədris prosesinin bir hissəsi deyil, cəmiyyətin inkişafının hərəkətverici qüvvəsidir. ADPU bu məsuliyyətli missiyanın icrası üçün yorulmadan çalışır və 2025-ci ildə müəllim hazırlığında növbəti mühüm addımlar atmağa hazırlaşır. Artıq pedaqoji ixtisasların tədris planlarının yenilənməsi gündəmdədir. Yeni planlar daha dinamik, daha praktik və bacarıqəsaslı olacaq, dünya standartlarına uyğunlaşdırılacaq. Amma bu, yalnız başlanğıcdır. Qısa zamanda təsdiqlənəcək "ADPU 2030: Strateji İnkişaf Planı" universitetin gələcək inkişafının yol xəritəsidir. Bu sənəddə 6 əsas strateji məqsəd müəyyənləşdirilib:

– Təbiət, sosial və humanitar elmlər üzrə keyfiyyətli təhsil ocağı olmaq;
– bu sahələrdə tədqiqat universitetinə çevrilmək;
– rəqəmsal texnologiyalar sahəsində lider mövqe tutmaq;
– sosial məsuliyyətli universitet modeli formalaşdırmaq;
– beynəlxalq rəqabətə davamlı bir ali təhsil müəssisəsinə çevrilmək;
– çevik və dayanıqlı idarəetmə sistemi yaratmaq.

Bütün bunları həyata keçirmək üçün 34 hədəf və 250-dən çox fəaliyyət istiqaməti müəyyən edilib. Lakin bütün bu planların uğuru bir məsələyə bağlıdır: müəllimlər. Biz yalnız yenilikçi müəllimlər yetişdirməklə gələcəyin parlaq gənclərini formalaşdıra bilərik. Bu səbəbdən müəllimlərin ümumi peşə səriştələrinin hazırlanması üzərində ciddi iş aparırıq. Bu sənəd hazır olduqdan sonra geniş müzakirəyə çıxarılacaq və müəllim hazırlığı, MİQ, diaqnostika və sertifikasiya kimi mühüm proseslər artıq dəqiq müəyyən edilmiş səriştələr əsasında aparılacaq.

Gələcəyin müəllimləri yalnız fənn biliklərinə yiyələnən şəxslər olmayacaq. Onlar həm də yumşaq bacarıqlara, müasir pedaqoji yanaşmalara, xarici dil və rəqəmsal biliklərə sahib olan, eyni zamanda, milli-mənəvi dəyərləri qoruyan mütəxəssislər olacaqlar. Prezident İlham Əliyevin də vurğuladığı kimi, biz elə bir gənc nəsil yetişdirməliyik ki, onlar milli dəyərlərə sadiq olsunlar, zehinləri saf qalsın. Ailə tərbiyəsi, məktəb mühiti və müəllim peşəkarlığı – bunlar gələcəyimizin sütunlarıdır.

Biz bu gün sabahın savadlı, vətənpərvər, dövrün çağırışlarına cavab verən, innovativ düşüncəyə malik müəllimlərini yetişdirməklə daha keyfiyyətli bir gələcəyə körpü qururuq. Onlar yetişdirəcəkləri yeni nəslin parlaq gələcəyini təmin edəcəklər. Çünki müəllimlər keyfiyyətli gələcəyin qurucularıdır.

***Cəfər CƏFƏROV,***
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, tarix elmləri doktoru, professor***

# Şəhər nəqliyyatına insan yönümlü yanaşma

**Prezident İlham Əliyevin rəhbərliyi ilə son 21 ildə nəqliyyat sahəsində əsaslı islahatlar aparılıb, infrastruktur yenidən qurulub, sektorda ölkə iqtisadiyyatının sürətli inkişafına mühüm təsir göstərən mühüm uğurlar qeydə alınıb. Ümumiyyətlə, bu dövrdə həyata keçirilən əsaslı struktur layihələrinin gerçəkləşdirilməsi nəticəsində ölkə iqtisadiyyatında sürətli inkişafın növbəti mərhələsinə başlanıb. Nəqliyyat sektorunda təhlükəsizlik və ətraf mühitin mühafizəsi standartlarına uyğunluq baxımından konkret tədbirlər reallaşdırılıb.**

Bu sistemdə aparılan siyasətin təməlini institusional islahatlar yolu ilə idarəetmənin təkmilləşdirilməsi, nəqliyyat əməliyyatlarında informasiya-kommunikasiya texnologiyalarından geniş istifadə, dövlət tənzimləmə mexanizmlərinin tətbiqi yolu ilə sağlam rəqabət mühitinin formalaşması kimi amillər təşkil edib.

Prezident İlham Əliyevin 13 fevral 2017-ci il tarixli sərəncamına əsasən, Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə birləşdirilərək, onların əsasında Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yaradılıb. Azərbaycan Respublikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 11 oktyabr 2021-ci il fərmanı ilə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi adlandırılıb.

Həmçinin Sumqayıt və Gəncə şəhər icra hakimiyyətləri başçıları yanında avtomobil nəqliyyatı ilə sərnişindaşıma idarələrinin və bir neçə müəssisənin əsasında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) yaradılıb. Dövlət başçısının 19 aprel 2023-cü il fərmanı ilə ümumi istifadədə olan nəqliyyat vasitələri və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində tənzimləmənin və nəzarətin həyata keçirilməsi Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə həvalə edilib. Eyni fərmanla Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyindəki "Bakı Nəqliyyat Agentliyi" publik hüquqi şəxsin ona qoşulması formasında yenidən təşkil olunub.



Qeyd edək ki, sərnişindaşımanın yaxşılaşdırılması, yollarda tıxacların azaldılması, şəhərin ekoloji vəziyyətinin yüngülləşdirilməsi və dövlət investisiyalarının səmərəliyinin artırılması ilə bağlı ölkə başçısının verdiyi tapşırığa uyğun olaraq "Bakı şəhərinin mobilliyinin transformasiyası" layihəsinə başlanılıb. Layihənin koordinasiyasını Prezident İlham Əliyevin müvafiq fərmanı ilə yaradılan Nəqliyyatı Əlaqələndirmə Şurası həyata keçirir. Son ilyarım ərzində şəhər nəqliyyatı sisteminin yaxşılaşdırılması sahəsində əldə edilən uğurlar adıçəkilən şurada təmsil olunan Ekologiya və Təbii Sərvətlər, Daxili İşlər nazirliklərinin, Bakı Şəhər İcra Hakimiyyətinin, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin və Avtomobil Yolları Dövlət Agentliyinin konstruktiv əməkdaşlığı sayəsində gerçəkləşib.

Bu gün dünyanın bütün iri şəhərlərində olduğu kimi, Bakının nəqliyyat sistemi də iqtisadi və demoqrafik artım fonunda bir çox çağırışlarla üzləşib. Bu çağırışlara cavab olaraq paytaxtımız "avtomobil mərkəzli şəhər" yanaşmasından "insan yönümlü" yanaşmaya keçid edib. Belə bir keçidlə nəqliyyat sistemində dövlət tənzimlənməsi reallaşmaqla bərabər, sakinlərin nəqliyyat tələbləri də dəyişib, diqqət, ilk növbədə, keyfiyyətə yönəlib. Keyfiyyət isə küçələrin müasir tələblər əsasında qurulmasına, avtobusların sayının yetərli olmasına, dəmir yolu və metro infrastrukturunun genişləndirilməsinə əsaslanıb.

Bakı şəhərinin nəqliyyat sistemində əvvəllər ciddi narahatlıq doğuran məsələlərdən biri də parklanma ilə bağlı idi. Bu sahədə bir xaos, hərc-mərclik, nizamsızlıq hökm sürürdü. Parklanmada qayda yaratmaq məqsədilə islahatlar həyata keçirildi, pullu parklanma sistemi təşkil edildi, bu sahə tamamilə rəqəmsallaşdırıldı, ödənişlərin mobil tətbiq vasitəsilə şəffaf qaydada həyata keçirilməsi gerçəkləşdirildi.

O da qeyd edilməlidir ki, bu gün Bakıda avtobuslara əhalinin inamını artırmağa imkan verən xüsusi zolaqlar şəbəkəsi yaradılıb. Bunun sayəsində avtobusların həm sürəti, həm göstərilən xidmətlərin keyfiyyəti yüksəlib. Şəhər daxilində avtobusların orta sürətinin 18 kilometrdən 22 kilometrə qədər artması müşahidə edilib.

Yeri gəlmişkən, "avtomobil yönümlü şəhərlər"in "insan yönümlü şəhərlər"ə keçidi məqsədilə Bakıda atılan digər mühüm addım parklar və "yaşıl" dəhlizlərin yaradılması ilə bağlıdır. Paytaxtımızda Xaqani bağının ərazisinin yan yollar hesabına genişləndirilməsi, metronun "28 May" stansiyası ətrafında isə park konseptli habın yaradılması, İçərişəhərə və Əziz Əliyev küçəsinə girişin məhdudlaşdırılması bunun bariz ifadəsidir.

Bax, bütün bu məqamlar nəzərə alınaraq avtobusla sərnişindaşıma tezliyinin artırılması, hərəkət sürətinin təmin edilməsi və xidmət keyfiyyətinin yüksəldilməsi məqsədilə tez bir zamanda 100 kilometrdən çox avtobus zolağı çəkilib. Yollarda hərəkətin tənzimlənməsi ilə əlaqədar qanunvericilik təşəbbüsü gerçəkləşdirilib – avtobus zolaqları tələbinə əməl edilməsi, qanunsuz parklanmanın azaldılması təmin olunub, gündəlik xətt avtobuslarının sayı 1750-dən 2160-a qədər artırılıb. Beləliklə, sərnişin nəqliyyatına belə bir yanaşma əhalinin həm bu minik vasitəsinə olan inamına müsbət təsir göstərib, həm də Bakıda daşımaların 41 milyona yüksəlməsini şərtləndirib.

Yanvarın 28-də keçirilən nəqliyyat məsələləri ilə bağlı müşavirədə bütün bunlarla bərabər, Bakıda taksi xidməti ilə bağlı layihələrin icra vəziyyətinə də toxunulub. Toplantıda islahatlardan öncə xidmət keyfiyyəti və təhlükəsizliklə bağlı ictimaiyyətdə haqlı narazılıqların mövcud olduğu bildirilərək taksilərin sayının qısa müddətdə 67 mindən 30 minə, taksilərin orta yaşının isə 15-dən 8-ə endirildiyi vurğulanıb. Ən başlıcası isə şəhər mərkəzinə doğru sıxlıq yaradan qısa məsafəyə səfərlərin sayı kəskin azaldılaraq, təxminən, 32 faizə endirilib.

Toplantıda xatırladıldı ki, islahatlar zamanı 35 min sürücü təlimlərə cəlb olunub və bunların hər biri ilə imtahanlar keçirilib. Sürücülərdən 29 mini imtahanlardan keçə bilib. İmtahanlar Dövlət İmtahan Mərkəzi tərəfindən aparılıb. AYNA informasiya sisteminin tərkibində yaradılan "Etaksi" sistemi vasitəsilə artıq taksi xidmətlərinə, taksi hərəkətlərinə nəzarətin həyata keçirilməsi gerçəkləşdirilib.

# KOBİA biznes fəaliyyətinə dəstəyini gücləndirir

*Ötən il bu imkandan 13 min sahibkar faydalanıb*



**Ötən il Kiçik və Orta Biznesin Biznesin İnkişafı Agentliyinin (KOBİA) biznes biliklərinin və bacarıqlarının artırılması üzrə dəstək və xidmətlərindən 13 mindən çox sahibkar, startap və biznesə başlamaq istəyən şəxs faydalanıb.**

İqtisadiyyat Nazirliyinin məlumatına görə, kiçik və orta biznes subyektlərinin bilik və bacarıqlarının yaxşılaşdırılması, sahibkarlığa dair məlumatlılıq səviyyəsinin yüksəldilməsi məqsədilə KOBİA tərəfindən il ərzində 1047 təlim təşkil olunub. Təlimlər kiçik və orta biznes qurumlarının təlim ehtiyaclarına uyğun olaraq satış, marketinq, mühasibatlıq, işçi heyətinin idarə edilməsi, brendləşmə, biznesdə innovasiyaların tətbiqi, biznes planın hazırlanması, layihələrin idarə olunması, eləcə də "yaşıl iqtisadiyyat" və digər mövzuları əhatə edib. Bununla yanaşı, 41 sahibkar və menecer beynəlxalq təcrübəyə yiyələnmək məqsədilə "Almaniya ilə biznes əməkdaşlığı" Proqramı çərçivəsində bu ölkədə ixtisasartırma kursu keçib.

2024-cü ildə KOBİA-nın müvafiq platformasındakı onlayn təlim videolarından 618 sahibkar və biznesə başlamaq istəyən şəxs ödənişsiz faydalanmaq imkanı qazanıb. Qurum tərəfindən satış kanallarına çıxış, marketinq, biznesin planlaşdırılması, mühasibatlıq, hüquqi məsələlərlə bağlı 2 min 473 sahibkara və biznesə başlamaq istəyən şəxsə məsləhət xidməti göstərilib.

Eyni zamanda, agentlik 2024-cü ildə kənd təsərrüfatı, istehsal, xidmət və digər istiqamətlərdə 1137 biznes planın ödənişsiz olaraq hazırlanmasına dəstək verib. Ümumilikdə, 2024-cü ildə qurumun biznes biliklərinin və bacarıqlarının artırılması istiqamətində göstərdiyi dəstək və xidmətlərdən 13 mindən çox KOB subyekti, startap və biznesə başlamaq istəyən şəxs yararlanıb.

KOBİA-dan XQ-yə verilən məlumata görə, "Startap" şəhadətnaməsinin verilməsi üzrə yaradılmış ekspertlər şurasının növbəti iclası keçirilib. Toplantıda KOB subyektlərindən daxil olmuş 9 müraciətə baxılıb və onlardan 4-nə "Startap" şəhadətnaməsinin verilməsi barədə qərar qəbul edilib. "Startap" şəhadətnamələri "Mobil mühasib" MMC-nin mühasibatlıq xidmətlərini avtomatlaşdıran mobil tətbiqi, "Performance Center" MMC-nin təhsil müəssisələrinin akademik və administrativ əməliyyatlarının idarəedilməsi üçün platforma və mobil tətbiqi, İDDO PSP MMC-nin İDDO sağlamlıq proqramının idarəedilməsi üçün onlayn platforması və YOLLAZ MMC-nin taksi xidmətinin təşkili üçün mobil tətbiqi layihələri üçün təqdim olunub.

Bununla da "Startap" şəhadətnaməsi almış KOB subyektlərinin sayı 192-yə çatıb.

Yeri gəlmişkən, "Startap" şəhadətnaməsi KOB subyektlərini sözügedən sənədi əldə etdikləri tarixdən etibarən innovasiya fəaliyyətindən qazandıqları gəlirlər üzrə mənfəət və ya gəlir vergisindən 3 il müddətinə azad edir. Layihələri inkişaf mərhələsində olan mikro və kiçik sahibkarlıq subyektləri "Startap" şəhadətnaməsi üçün KOBİA-ya müraciət etməlidirlər.

# TANAP-la 75 milyard kubmetr qaz nəql olunub

**Azərbaycan qazının Türkiyənin qərb sərhədinə çatdıran Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) ilə qaz tədarükü ahəngdar rejimdə davam edir. Boru kəməri istismara verildiyi vaxtdan etibarən Türkiyə və Avropanın enerji təhlükəsizliyinə mühüm töhfələr verib.**

Cənubi Qaz dəhlizinin ən uzun hissəsi olan TANAP-la qazın kommersiya məqsədli nəqlinə başlanmasından bəri 75 milyard kubmetr "mavi yanacaq" daşınıb. Bu barədə boru kəmərinin operatoru açıqlama yayıb. Məlum olduğu kimi, TANAP Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində hasil edilən qazı Gürcüstan – Türkiyə sərhədindən Türkiyənin qərb sərhədinə qədər nəql edir.

TANAP-ın ümumi dəyəri 7 milyard dollara yaxındır. Boru kəmərinin ilkin ötürmə gücü ildə 16 milyard kubmetr qaz təşkil edir. Gələcəkdə isə bu həcmin 31 milyard kubmetrə qədər artırılması mümkündür. TANAP-la nəql edilən qazın, təqribən, 6 milyard kubmetri Türkiyəyə satılır, qalan hissə isə Avropaya ixrac olunur.




Xatırladaq ki, Cənub Qaz Dəhlizinin ən mühüm seqmenti olan TANAP layihəsi üzrə saziş 2012-ci il iyunun 26-da İstanbulda imzalanıb. 2015-ci il martin 12-də boru kəmərinin təməli qoyulub. Kəmərin Türkiyə ərazisində doldurulmasına 2018-ci ilin yanvar ayının sonunda start verilib. Həmin il iyunun 12-də Türkiyənin Eskişehir şəhərində TANAP-ın Türkiyə hissəsinin açılışı keçirilib. Qardaş ölkəyə ilk kommersiya qazının tədarükü 2019-cu il iyunun 30-da başlayıb. Noyabrın 30-da isə Türkiyənin Ədirnə vilayətinin İpsala şəhərində TANAP-ın Avropa ilə birləşdirilməsinin tamamlanmasına həsr olunmuş təntənəli mərasim keçirilib.

Yeri gəlmişkən, TANAP layihəsində "Cənub Qaz Dəhlizi" QSC 51 faiz, Türkiyənin BOTAŞ şirkəti 30 faiz, BP 12 faiz və STEAŞ 7 faiz paya malikdir. Boru kəmərinin uzunluğu 1793 kilometr (Çanaqqala Boğazından keçən 18 kilometr 785 metr əlavə 2 sualtı kəmər) təşkil edir. Boru kəmərinin diametri Eskişehrədək 56 düym, ondan sonra 48 düym, dəniz dibində isə 36 düym təşkil edir.

# İlk ayda dövlət büdcəsi proqnozu üstələnib

**Maliyyə Naziriyinin yaydığı məlumata görə, ölkəmizin dövlət büdcəsinin gəlirləri cari ilin yanvar ayında 4 milyard 49 milyon manat (aylıq proqnozdan 89 milyon manat və ya 2,25 faiz çox) təşkil edib.**

Gəlirlərdə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmalar 2 milyard 259 milyon 282,5 min manat, Dövlət Gömrük Xidmətindən 487 milyon 139,2 min manat, Əmlak Məsələləri Dövlət Xidmətindən 3 milyon 335,8 min manat, Dövlət Neft Fondundan transfert isə 1 milyard 206 milyon 8 min manat olub. Dövlət büdcəsindən maliyyələşən təşkilatların ödənişli xidmətlərindən daxilolmaları 57 milyon 317,9 min manata, sair daxilolmalar isə 35 milyon 363,6 min manata yüksəlib.



Büdcə gəlirlərindəki dinamikaya uyğun olaraq xəzinədarlıq orqanları tərəfindən bütün xərc sifarişlərinin tam həcmdə və vaxtında icrası təmin olunub. Belə ki, yanvar ayında dövlət büdcəsinin xərcləri 2 milyard 339 milyon 594,2 min manat (aylıq proqnozdan 12 milyon 487,1 min manat və ya 0,54 faiz çox) təşkil edib.

Məlumatda deyilir ki, cari ilin yanvar ayında rəsmi iş günlərinin sayının 18 olmasına baxmayaraq, büdcə xərcləri üzrə son illərin ən yüksək icra məbləği qeydə alınıb.

# Kartlarla ödənişlər 79 milyard manata çatıb

*Elektron ticarətin həcmi isə 27 milyard manat artıb*

**Mərkəzi Bankın məlumatına görə, 2024-cü ildə Azərbaycanda debet və kredit kartları vasitəsilə həyata keçirilən ölkədaxili nağdsız ödənişlərin həcmi 78 milyard 882 milyon manat (əvvəlki illə müqayisədə 60,9 faiz və ya 29,8 milyard manat çox) təşkil edib.**

Ötən il kartlar vasitəsi ilə həyata keçirilən ölkədaxili nağdsız ödənişlərin 66 milyard 515 milyon manatı ( 84,3 faizi) elektron ticarətin payına düşüb ki, bu da 2023-cü illə müqayisədə 69,8 faiz və ya 27,3 milyard manat çoxdur.



Hesabat dövründə sözügedən nağdsız ödənişlərin 12 milyard 274 milyon manatı POS-terminallar, 83 milyon manatı özünə xidmət terminalları, 10 milyon manatı isə bankomatlar vasitəsilə həyata keçirilib.

Qeyd edək ki, 2025-ci il yanvar ayının 1-nə ölkədə debet kartlarının sayı 17 milyon 642 min ədəd, kredit kartlarının sayı isə 2 milyon 256 min ədəd olub.

# Azərbaycan – Qırğız yatırım ortaqlığı

**Qırğızıstanın İqtisadiyyat və Kommersiya Nazirliyinin yaydığı məlumata görə, Azərbaycan–Qırğız İnvestisiya Fondu bu ölkədə həyata keçiriləcək iki layihəni –kiçik su elektrik stansiyasını (SES) və müasir tikiş fabrikinin tikintisini maliyyələşdirəcək. SES-in gücü 9 meqavat təşkil edəcək, fabrikin tikintisi sayəsində isə 300 yeni iş yeri yaradılacaq.**



Qeyd edək ki, Azərbaycan – Qırğız İnkişaf Fondu Şurasının Bakıda keçirilən 4-cü iclasında yeni investisiya siyasəti və 2 layihənin maliyyələşdirilməsi təsdiqlənib.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Paşinyanın “Ter-Petrosyan yolu”?

## *Avazı yaxşı gəlir, amma...*

**Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyan 1996-cı ildə bildirmişdi ki, ölkəsi o zaman müstəqil siyasət yeridəcək ki, qonşuları Azərbaycan və Türkiyə ilə münasibətlərini normallaşdırsın. Ter-Petrosyan 1988-ci ildə Qarabağın Ermənistana birləşdirilməsini nəzərdə tutan “Miatsum” hərəkatı şəraitində meydana çıxmış lider idi. O hərəkat ki, 1991–1993-cü illərdə Azərbaycan torpaqlarının iyirmi faizinin işğalı reallığını doğurmuşdu.**



Qeyd edək ki, 1991–1993-cü illərdə Ermənistanda müharibədəki uğurun gətirdiyi eyforiya dövrü yaşanırdı. Lakin ulu öndər Heydər Əliyevin ikinci dəfə respublikamızda hakimiyyətə gəlişi ilə bütün daşlar yerinə oturmağa başladı. Prezident Heydər Əliyevin beynəlxalq müstəvidə apardığı mübarizə nəticəsində dünya ictimaiyyəti “Miatsum”un təcavüzkar mahiyyəti ilə yaxından tanış olmaq imkanı əldə etdi. O zaman məhz L.Ter-Petrosyan özünün də iştirakçısı olduğu və onu dövlət başçısı postuna aparan “hərəkatın” tam cəfəngiyyata söykəndiyini duydu və anladı ki, Azərbaycana qarşı müqavimətin heç bir faydası yoxdur. O, əvvəldə haqqında söz açdığımız çıxışını da məhz bu düşüncənin təsiri altında etmişdi.

L.Ter-Petrosyan bu fikirləri ilə əslində, Ermənistanın 1988–1996-cı illərdə keçdiyi yolun, tutduğu xəttin, reallaşdırdığı fəaliyyətin yanlışlığını bəyan etmişdi. Bu səbəbdən onun qarşısında iki yol açılmışdı – ya iradə nümayiş etdirib ölkənin kursunu dəyişmək, ya da istefa vermək. Məlum olduğu kimi, Levon ikincini seçərək, yerini Azərbaycana və Türkiyəyə qarşı ziddiyyətlər daşıyıcılarına verdi. Beləliklə, Azərbaycan torpaqları işğalda qaldı. Halbuki, həm Ter-Petrosyan, həm də onun 1998-ci ildəki istefasından bir il sonra parlament terroru nəticəsində qətlə yetirilmiş spiker Karen Demirçyan və baş nazir Vagen Sarkisyan ölkəmizə münasibətdə güzəştin tərəfdarı idilər...

Bəli, Ermənistanda Azərbaycana qarşı güzəştsiz mövqe tutan “Qarabağ klanı”nın, xunta rejiminin hakimiyyəti uzun sürdü. Bu rejim və havadarları Qarabağ üzrə danışıqlar prosesində manipulyasiyalara yol verdilər, hər cür barış yollarından imtina etdilər və nəhayət, bıçağı sümüyə dirədilər. Tam belə bir durumda, yəni 2018-ci ildə Ermənistanda hakimiyyət dəyişikliyi baş verdi və iqtidara Nikol Paşinyan gəldi. O Paşinyan ki, L.Ter-Petrosyanı özünə müəllim sayırdı.

Ancaq N.Paşinyan hakimiyyətə gəldikdən bir il sonra, belə demək mümkünsə, heç də “yaxşı erməni” olmadığını göstərdi. Onun “Qarabağ Ermənistandır və nöqtə” bəyanatı həm həmin vaxtadək aparılmış danışıqlar prosesinin mahiyyətinə zidd idi, həm də baş nazirin özünün səsləndirdiyi baxışlara. Nəzərə alaq ki, Paşinyan müxalifətdə olarkən Qarabağı Ermənistanın üzərindən asılmış ağır daş kimi qələmə vermiş və bildirmişdi ki, ölkə bu daşı çiyinlərindən atıb rahatlıq tapmalıdır. Rahatlıq tapmağın isə həm Azərbaycanla, həm də Türkiyə ilə normal münasibətlərin qurulması seqmentinin mövcudluğu şübhəsizdir.

Bəli, 44 günlük müharibə Paşinyanın belə “nala-mıxa” vurduğuna görə baş verdi və Ermənistan rüsvayçı məğlubiyyətə uğradı. Savaşdan sonra qalib Azərbaycan məğlub olmuş ölkəyə barış əlini uzatdı, onu mehriban qonşuluğa dəvət etdi. Türkiyənin də eyni cür davrandığını, xoş mesajlar səsləndirdiyini gördük. Ancaq Paşinyan hansı yolla getdi? Qərbə sığındı və İrəvanı Cənubi Qafqaz müstəvisində qlobal oyunların kiçik alətinə çevirdi. Ardınca erməni varlığının “Miatsum” kitabı tam bağlandı. Ancaq rəsmi İrəvan yenə dərs çıxarmadı və bu gün də eyni ampluadadır.

***

İndi N.Paşinyan ABŞ-a səfəri çərçivəsində paytaxt Vaşinqtonda erməni icmasının nümayəndələri ilə görüşür və faktiki olaraq, L.Ter-Petrosyanın 1996-cı ildə səsləndirdiyi tezisləri təkrarlayır. Hələlik, mövcud xüsusdakı ən pozitiv durum Nikolun belə bir fikri dilə gətirərək, hakimiyyətdə qalmağı bacarmasıdır. Ter-Petrosyan avantüristlərin qarşısında duruş gətirə bilməmişdi.

Əlqərəz, N.Paşinyanın sözlərinə görə, Ermənistanın həyat qabiliyyəti o zaman mümkün olacaq ki, ölkə xarici yardım və müdaxilə olmadan qonşuları arasında yaşaya biləcək. Əlbəttə, Nikolun ABŞ-da belə bir fikri səsləndirməsi pozitiv məqam kimi qiymətləndirilə bilər. Hər halda, indiyədək rəsmi İrəvanı müxtəlif regional oyunların girdabına salan birinci qüvvə Fransa olubsa, ikincisi Birləşmiş Ştatlardır. Görəsən, Amerikanın Azərbaycan və Türkiyə əleyhinə köklənmiş konqresmen və senatorları Nikolu nankor qismində göstərməyəcəklər ki?

N.Paşinyan onu da bildirib ki, rəhbərlik etdiyi hakimiyyət Ermənistanın uzunömürlülüyünü təmin etmək vəzifəsini qarşıya qoyub: “Mənim fikrimcə, regionumuzda və qonşularımız arasında kənar yardım olmadan yaşaya biləcəyimiz bir vəziyyət yarada bilsək, bunu (uzunömürlü dövlət yaratmağı – red.) təmin edəcəyik. Bu, o demək deyil ki, bizim müxtəlif geosiyasi mərkəzlərlə ittifaqlarımız, tərəfdaşlıqlarımız olmasın. Məsələ bunda deyil. Əsas odur ki, biz öz bölgəmizdə kənardan köməksiz və kənar müdaxilə olmadan yaşaya bilməyi qarşımıza məqsəd qoymalıyıq. Ona görə anlayırıq ki, problemlərimizi həll etmək üçün özümüzü dərk etməliyik. Bölgəmizdə problem yarananda, adətən, bizim orta reaksiyamız ora üz tutmaq, bura dönmək, hansısa qeyri-regional faktora müraciət etmək olur. Bunu niyə belə etdiyimiz aydındır. Amma buna baxmayaraq, məncə, öz baxışımızı dəyişib deməliyik ki, əgər bizim regionda problemimiz varsa, ilk növbədə özümüzü bu problemin həllinin subyekti kimi qəbul etməliyik. Bizim ilk reaksiyamız belə olmamalıdır ki, problemin həlli üçün müraciət edə biləcəyimiz qüvvə varmı?”

Necə deyərlər, ilk növbədə avazı yaxşı gəlir. Bəli, Paşinyan, dolayısı ilə Azərbaycanın irəli sürdüyü “region region ölkələri üçündür” formulundan söz açır. Yəni tutalım bölgə miqyasında hansısa çətinlik meydana çıxırsa, onun aradan qaldırılması yolları, ilk növbədə, bölgənin özündə axtarılmalıdır. Bunun üçün isə Azərbaycan və Türkiyə, eyni zamanda, Gürcüstan, İran və nəhayət, Rusiya ilə düzgün əməkdaşlığın qurulması mütləqdir. Axı Ermənistan kimi dövlətin prinsipcə xaricdə nə işi ola bilər? Tarix boyu xaric erməni varlığına rupor kimi yanaşıb və yenə də eyni kursu saxlamaqdadır. Elə isə Paşinyan iqtidarının ənənəvi stereotiplərdən uzaqlaşması vacibdir. Ermənisayağı uzaqlaşma isə budur ki, İrəvan Moskvadan üz döndərib tamamilə Qərbə baxır. Belə yanaşma, şübhəsiz, yolverilməzdir.

Bəli, İrəvan köhnə şakərindən xilas ola bilmir. Məsələn, bu gün Azərbaycan-Ermənistan şərti sərhədinin Ermənistan tərəfində Avropa İttifaqının tərkibi sabiq alman polislərindən və fransız jandarmlarından ibarət mülki müşahidə missiyası keşik çəkirsə, üstəlik, bu təsisatın gələcəkdə NATO missiyasına çevrilməsi ehtimalları varsa, deməli, Nikolun dediyi başqadır, əməli bir başqa. Görəsən, baş nazir xoşbəxtliyini niyə kənarda axtarır? Əlbəttə, bu sayaq sualların sayını artırmaq, hazırda Ermənistanın sürətlə silahlandığını diqqətə çatdırmaq mümkündür. Nikol nə qədər prosesi ölkənin təhlükəsizliyinin qorunması, dövlətin müdafiəsi ilə əsaslandırsa da, aydındır ki, onun gətirdiyi arqumentlər mənasızdır. Həm də ona görə ki, Ermənistan heç vaxt qonşularından güclü olmayıb, həmişə üstünlüyə hansısa kənar qüvvələrin köməyi ilə yiyələnib.

İndi rəsmi İrəvan qarşısında xarici oyunçuların “xidmətlərindən” imtina şansı yaranıb. İmtina həm qətiyyətli şəkildə olmalıdır, həm də səmimiyyətə əsaslanmalıdır. Amma nə qətiyyət var, nə də səmimiyyət. Elə buna görə də ortaya növbəti suallar çıxır: Paşinyan ABŞ-a nə məqsədlə gedib? O, səfərə hansısa dini tədbirə qatılmaq üçünmü yollanıb? Əlbəttə, suallarımız ritorikdir. Çünki hər şey məlumdur. Nikolun Birləşmiş Ştatlara üz tutmasının məqsədi Ağ evin yeni sahibi – Prezident Donald Trampla görüşmək, heç olmasa, onunla bircə dəfə şəkil çəkdirməkdir. Paşinyan, eyni zamanda, Amerikanın əvvəlki administrasiyasının erməni kartı üzərində oynadığı regional oyunun davamının olub-olmayacağına aydınlıq gətirmək istəyir. Bəlkə, elə buna görə qonşularla normal münasibətlərdən dəm vurur. Yəni təxminən belə: Başqa tapşırığınız yoxdursa, özümü bada verməyim. Yeri gəlmişkən, L.Ter-Petrosyana vaxtilə Qarabağ avantürası ilə bağlı Qərbdən neqativ cavab gəlmişdi. “Şimal” isə soyuq küləklərini onun üçün əsdirməkdən uzaq durmuşdu.

***Ə.CAHANGİROĞLU***
***XQ***



# Türkmənistanda COP29 müzakirəsi

**Böyük Britaniyanın Türkmənistandakı səfirliyi və BMT-nin bu ölkədəki nümayəndəliyi tərəfindən təşkilatın binasında diplomatik korpusun iştirakı ilə keçirilən İnkişaf Tərəfdaşları İqlim Qrupunun 8-ci görüşündə 2024-cü ilin noyabrında Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) əsas nəticələri barədə brifinq təqdim edilib.**

Səfir Qismət Gözəlov COP29-da əldə olunan mühüm nəticələr barədə məlumat verərək, Azərbaycanın beynəlxalq əməkdaşlıq və iqlim dəyişikliyi məsələlərindəki fəaliyyətlərini vurğulayıb. Qeyd edilib ki, Azərbaycan qlobal tədbirə uğurla hazırlıq görüb və cəmi 10 ay ərzində məqsədlərini həyata keçirməyə nail olub. COP29 çərçivəsində baş tutmuş Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammiti çərçivəsində 34 yüksəksəviyyəli tədbir, 250-dən çox xarici tərəfdaşın birgə təşkilatçılığı ilə ekologiya, maliyyə, investisiya, enerji, sülh, elm, texnologiya, qida təhlükəsizliyi, urbanizasiya və gender bərabərliyi kimi mövzular üzrə 100-dən çox tədbir keçirilib.

Vurğulanıb ki, COP29-un mühüm qərarlarından biri 1,3 trilyon ABŞ dolları məbləğində yeni iqlim maliyyəsi hədəfinin müəyyən olunması olub. Bu çərçivədə 2009-cu ildə qəbul edilmiş 100 milyard dollarlıq maliyyə öhdəliyi üçqat artırılaraq, ən azı, 300 milyard dollara çatdırılıb.

***XQ***

# Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin hesabatı

**Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyində 2024-cü ildə görülmüş işlərə və qarşıda duran vəzifələrə həsr olunan kollegiya iclası keçirilib.**

Agentliyin rəisi, general-mayor İlqar Abbasov görülmüş işlərdən danışarkən bildirib ki, 2024-cü ildə Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi tərəfindən neft və qaz ixrac boru kəmərlərinin, o cümlədən mühafizə olunan şəxslərin və obyektlərin mühafizəsi təmin edilib, terror, təxribat və hər hansı təhdidlərin vaxtında aşkar edilməsi və qarşısının alınması, yeni yaradılmış qurum kimi agentliyin fəaliyyətinin formalaşdırılması və şəxsi heyətinin kompleksləşdirilməsi üçün zəruri işlər həyata keçirilib. Ötən il neft-qaz ixrac boru kəmərlərinin “mühafizə zonaları”nda qaydaları pozan 5377 nəfər saxlanılıb və barələrində müvafiq tədbirlər görülüb. Bundan başqa, ötən il 86 PUA-nın idxalı və istifadəsi ilə bağlı müraciətə baxılaraq, 48-nə mənfi rəy verilib.

Diqqətə çatdırılıb ki, ötən il 37 nəfər olmaqla, son 2 ildə, ümumilikdə, 85 nəfər Vətən müharibəsi iştirakçısı xidmətə qəbul edilib. Xidməti fəaliyyətində fərqləndiklərinə görə, agentliyin 360 hərbi qulluqçusu mükafatlandırılıb. 12 nəfər hərbi qulluqçu Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə dövlət mükafatlarına layiq görülüb. 2024-cü ildə 45 hərbi qulluqçu intizam qaydalarını pozduqlarına görə barələrində intizam cəzaları tətbiq edilib.

Kollegiya iclasında il ərzində görülmüş işlərə dair regional idarə rəislərinin hesabat-məruzələri dinlənilib, Agentliyin Aparatının idarə rəisləri çıxış edib, qarşıda duran vəzifələr müzakirə olunub.

***XQ***

# Hökumət missiyamız Somalidə



**Fevralın 4–5-də xarici işlər nazirinin müavini Yalçın Rəfiyevin rəhbərliyi ilə ölkəmizin hökumət missiyası Azərbaycanla Somali arasında ikitərəfli siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində mövcud olan yüksəksəviyyəli əməkdaşlıq münasibətlərinin davam etdirilməsi məqsədilə Somali Federativ Respublikasında səfərdə olub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, səfər zamanı nümayəndə heyətinin Somali Baş nazirinin müavini Salah Əhməd Cama, xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Əhməd Moallim Fiqi, neft və mineral resurslar naziri Dahir Shire Mohamed, müdafiə naziri Abdulkadir Mohamed Nur Jama, planlaşdırma, investisiya və iqtisadi inkişaf naziri Mohamud Beenebeene, təhsil, mədəniyyət və ali təhsil naziri Farah Abdulkadir Mohamed, Milli İdentifikasiya və Qeydiyyat Qurumunun direktoru, həmçinin Balıqçılıq və Mavi İqtisadiyyat Nazirliyinin, Kənd Təsərrüfatı və Suvarma Nazirliyinin, Heyvandarlıq, Meşə və Otlaq Təsərrüfatı Nazirliyinin yüksəkvəzifəli şəxsləri ilə görüşləri keçirilib, Türkiyə Maarif Fondunun Somali nümayəndəliyinə tanışlıq ziyarəti təşkil olunub.

Görüşlərdə ölkələrimiz arasında son illər ərzində təmasların intensiv hal aldığı və bunun əməkdaşlıq perspektivlərinin müzakirəsində faydalı rol oynadığı diqqətə çatdırılıb. Həmçinin bir sıra istiqamətlər, o cümlədən neft və qaz, yaşıl enerji, kənd təsərrüfatı, balıqçılıq, humanitar və təhsil sahələri üzrə əməkdaşlığın inkişafı üçün potensialın mövcud olduğu və müvafiq sahələrdə ikitərəfli hüquq-müqavilə bazasının yaradılmasının vacibliyi vurğulanıb.

Səfər çərçivəsində, həmçinin Azərbaycanın Xarici İşlər Nazirliyi ilə Somalinin Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələrin ilk iclası keçirilib. Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, Somali tərəfindən isə xarici işlər və beynəlxalq əməkdaşlıq üzrə dövlət naziri Ali Mohamed Omar Balad rəhbərlik edib. Siyasi məsləhətləşmələr zamanı ikitərəfli siyasi və iqtisadi məsələlər, BMT, Qoşulmama Hərəkatı, İƏT və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

Hökumət missiyasına Müdafiə, Müdafiə Sənayesi, Energetika, Elm və Təhsil, İqtisadiyyat, Kənd Təsərrüfatı nazirliklərinin, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin nümayəndələri daxil olub.

***XQ***

# II Azərbaycan–Monqolustan siyasi məsləhətləşmələri

**Fevralın 3–5-də xarici işlər nazirinin müavini Elnur Məmmədovun rəhbərliyi ilə Azərbaycanın hökumət missiyası Monqolustanda səfərdə olub.**



Səfər zamanı Elnur Məmmədov Monqolustanın xarici işlər naziri, xanım Batmunx Battsetseq, yol və nəqliyyat naziri Delqersixan Borxuu, Monqolustan Prezidentinin xarici siyasət məsələləri üzrə müşaviri Odbayar Erdenetsoqt ilə görüşüb.

Səfər çərçivəsində Azərbaycan Xarici İşlər Nazirliyi ilə Monqolustan Xarici İşlər Nazirliyi arasında ikinci siyasi məsləhətləşmələr keçirilib. Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Elnur Məmmədov, qarşı tərəfdən isə Monqolustan Xarici İşlər Nazirliyinin Dövlət katibi Munxtşiq Lxanajav rəhbərlik ediblər. Siyasi məsləhətləşmələr zamanı ikitərəfli və çoxtərəfli siyasi əlaqələrin genişləndirilməsi, yüksəksəviyyəli səfərlər mübadiləsi, həmçinin beynəlxalq təşkilatlar, müqavilə-hüquq, iqtisadi-ticarət, energetika, mədənçilik, nəqliyyat, turizm, humanitar və digər sahələrdə əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri müzakirə olunub.

***XQ***

Firidun Ağazadə – 75

# Mənəvi xəzinələrin körpüsalanı

## Tərcüməçi xalqımızın peşəkar dilmancıdır

**Çağdaş tərcümə sənətinin istedadlı və məhsuldar nümayəndəsi, şair-jurnalist Firidun Ağazadənin anadan olmasının 75 illik yubileyini media və ədəbi ictimaiyyət sevgi-sayğı ilə qeyd edir. Ömrünün yarım əsrdən çoxunu ingilis dilindən bədii və sənədli tərcümə işinə həsr etmiş soydaşımız ölkənin nüfuzlu mətbuat və nəşriyyat qurumlarında peşəkar və səmərəli fəaliyyəti ilə layiqli hörmət və rəğbət qazanıb.**



1950-ci ilin fevralında Lerikin Zuvand mahalının Pirasora kəndində anadan olmuş Firidun Ağazadə 1966-cı ildə Azərbaycan Xarici Dillər İnstitutunun ingilis dili fakültəsinə daxil olub. Tələbəlik illərində İsmixan Rəhimov, Oruc Musayev, Ənvər Rza, Zeydulla Ağayev kimi filoloq və xarici dil mütəxəssislərindən dərs almış, ana dilimizə tərcümənin sirlərinə dərindən yiyələnmiş soydaşımız media orqanlarında və ali təhsil məktəblərində çoxillik fəaliyyəti dövründə bilik və bacarıqlı davamçılarını da yetişdirib.

15 il "Azərnəşr"də tərcümə redaktoru, 26 il AZƏRTAC-ın xarici dillər redaksiyasında tərcüməçi, buraxılış redaktoru işləyən Firudim müəllim, eyni zamanda, Azərbaycan Mətbuat Şurasının tərcüməçisi, Dövlət İmtahan Mərkəzinin jurnalistika üzrə eksperti kimi də ictimai fəaliyyət göstərib. Təqaüdə çıxandan sonra yaradıcılıq fəaliyyətini "Qanun" jurnalında tərcümə redaktoru kimi davam etdirir.

Azərbaycan Jurnalistlər Birliyinin üzvü olan Firidun Ağazadə ingilis dilindən 40-a yaxın bədii-sənədli kitabın tərcüməçisi, 5 şeir və publisistika toplusunun müəllifidir. O, Azərbaycan jurnalistikasının inkişafındakı xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif olunub.

***Əlamətdar yubileyə zəngin bioqrafiya və samballı yaradıcılıq uğurları ilə gələn tərcüməçi-redaktorla söhbətə həyatında aparıcı yönə çevrilmiş poeziya və media aləminə gəlişinin tarixçəsindən başladıq:***

– Tələbəlikdən şeirlər yazırdım, institut qəzetində çap olunurdum. Mərkəzi nəşrlərdə çap olunmaq çətin idi – həm tələbkarlıq var idi, həm də şeirə axın güclü idi. "Azərbaycan gəncləri" qəzetində bir şeir çap etdirmək şairliyini təsdiq etdirməyə bərabər idi. Belə bir şəraitdə poeziya nümunələrinin tərcüməsinə üz tutdum.

Mənə maraqlı və cazibədar gəlirdi bu iş. Azərbaycan dilindən ingilis dilinə tərcümə etmək fikrinə düşdüm. Müəllimlərim də məni həvəsləndirirdilər. Vaqifdən bir-iki, Sabirdən 1 şeir tərcümə etdim və dayandım. İndi bilirəm ki, zəif tərcümələr imiş. Bunun üçün ingilis poeziyasını və poetexnikasını bilmək lazım imiş.

2–3 il orta məktəbdə müəllim işlədim. Yaradıcı mühitə yaxın olmaq üçün Bakıya köçdüm. Media qurumlarında tərcümə redaktoru işləməklə yanaşı, Sosial İdarəetmə və Politologiya İnstitutunun və Dövlət İdarəçilik Akademiyasının xarici dillər kafedrasının müəllimi kimi ingilis dilini tədris etdim. Tərcümə ilə daha ciddi, ardıcıl məşğul oldum. İngilis dilini dərindən öyrənməklə, şeir yazmaqla bərabər, xarici şairlərin şeirlərini də tərcümə etməyə başladım. Elə o illərdə Bayrondan, Şellidən, Hyuzdan şeirlər tərcümə etdim. Beləcə böyük tərcümə yoluna çıxdım.

***– Hansısa qurumda tərcüməçi işləməklə yanaşı, sərbəst yaradıcılıqla da məşğul olmaq ikiqat ağırdır. Siz bunu bacarmısınız.***

– Xarici dil mütəxəssisi ya praktik fəaliyyətlə məşğul olmalı, ya da dil öyrətməlidir. Üstəlik, bədii yaradıcılıq – bəli, çox çətindir. Tərcümə və bədii yaradıcılıqda uğur qazabmaq üçün mediada çalışmaq üstün imkanlar açır. Böyük şairimiz Məmməd Arazın baş redaktoru olduğu "Azərbaycan təbiəti" jurnalında çalışmaq məni bu sahəyə möhkəm bağladı. Jurnal üçün yazılar hazırladım. Məmməd Arazın dəstəyi ilə "Azərbaycan gəncləri" qəzetinin də tilsimini qırdım, orada şeirlərim çap olundu.

Sonra taleyim "Azərnəşr"lə bağlandı. Burada bədii ədəbiyyat şöbəsində tərcümə redaktoru işlədim. İlk böyük tərcüməm Somerset Moemin "Ay və qara şahı" romanı da burada nəşr olundu. O vaxt mənə inandıqları və qayğı göstərdikləri üçün nəşriyyatın direktoru Azər Mustafazadənin, baş redaktor Əlövsət Ağalarovun xeyirxahlığını indi də unutmuram.

Elə bu vaxt kitabın, qəzet-jurnalın, şeirin, bədii sözün taleyinə balta çalan bazar iqtisadiyyatı qılıncını siyirdi. Nəşriyyatlar müflis oldu, işsiz-gücsüz, pulsuz-qonorarsız qaldıq. "Bakı" qəzeti ilə əməkdaşlıqdan tanıdığım Şamil Şahməmmədov o zaman AZƏRTAC-ın baş direktoru idi. Onun yanına gedib dedim ki, mən həm də tərcüməçiyəm, şeir, roman tərcümə etmişəm, amma işsizəm. Bacarıqlı insanları dəyərləndirən Şamil müəllim məni işə götürdü. Dedi, hələlik sənədləri tərcümə edərsən, ingilis dili redaksiyası yaratmaq istəyirik, sən də axtar, başqa tərcüməçilər də tap. Axır ki, redaksiyamız formalaşdı.

Beləliklə, ömrümün 21 ili burada keçdi. Fəxr edirəm ki, bu illərdə ölkəmizə qarşı informasiya blokadasının yarılmasında mənim də xidmətim var. Müstəqillik əldə etmiş ölkəmizin, dövlətimizin xarici siyasətinin təbliğində mühüm rolu olan beynəlxalq sənədlərin, ulu öndər Heydər Əliyevin, Prezident İlham Əliyevin mühüm çıxışlarını, bəyanatlarını, müraciətlərini, digər rəsmi sənədləri, siyasi və beynəlxalq aləmdə respublikaməızın haqlı mövqeyini müdafiə edən saysız-hesabsız informasiyanı, bir çox vacib sənədi tərcümə edib dünyaya yaymışıq.

AZƏRTAC-da bəzən 20–24 saat davam edən işdən yorulmurdum, çünki öz yerimdə idim, sevdiyim işi görürdüm. Ömürlük tərcümənin sehrinə düşmüşəm. 3–4 dili müqayisə etmək imkanım var. Tərcümə bir dünyadır. Sözlə, ifadə ilə, mənə ilə işləmək zövq verir mənə. Böyük Şəhriyar haqlı olaraq yazırdı: "Bizdən qabaqdadır avropalılar, İşi iş bilənə tapşırır onlar".

Tərcümədə rəsmi üslubun öz çətinliyi var, amma mən AZƏRTAC-da işlədiyim illərdə bu sahədə xeyli təcrübə qazandım. Buradakı işimlə yanaşı, 38 bədii kitab tərcümə etdim. Bəzən dövlət başçısının bəyanatını təcili tərcümə etmək lazım gəlirdi, özü də bu mətn birbaşa onun stolunun üstünə gedirdi. Çox diqqətli və dürüst olmaq lazım idi. İnformasiya müharibəsi gedirdi.

***– Rusiya işğalı və onun davamı olan sovet dövründə bizdə rus dilindən tərcümə aparıcı olmuşdu. Müstəqillik isə dünyaya çıxışa qapı açan ingilis dilini gündəmə gətirdi. Bu sahədə durum necədir?***

– Ötən illərdə ingilis dilindən tərcümə sahəsində xeyli təcrübə qazanılıb. Həm rəsmi, həm də bədii tərcümənin üslubi normaları qərarlaşıb. Lakin tərcümə sahəsində bir qarışıqlıq da var. İndi kənarda oxuyub gələnlər xarici dilləri bilirlər. Amma peşəkar tərcümə üçün ana dilini də yaxşı bilməlisən. Yüksək səviyyədə, üslubi və qrammatik qaydalara əməl etməklə tərcümə etmək hər adama müyəssər olmur. Dili bilərsən, amma həm də yazar olmalısan – sözlə, mətnlə işləməlisən, abzaslar arasında əlaqə yaratmalısan, rabitəli mətn qurmalısan.

Xarici Dillər Universitetini bitirən hər gənc tərcüməçi deyil və ola da bilməz. Xaricdə oxuyub gələnlər Azərbaycan dilindən xarici dilə və ya əksinə tərcümə etməkdə çox çətinlik çəkirlər. Çünki ana dilimizi dərindən bilmirlər.

***– Buna görədir ki, deyirlər: tərcüməçi birinci öz dilini yaxşı bilməlidir. Axı onun yaratdığı mətn ana dilində düzgün və səlis səslənməlidir.***

– Öz dilini sevmək, onu danışmaq, qorumaq lazımdır. Unutmayaq, böyük və zəngin dillər var, istənilən mənanı dilimizə tərcümə etmək də mümkündür. Bəli, ingilis dilində bir sözün 50 mənası var, amma mütəxəssislər deyilər: "Ən yaxşı tərcümə fikrin tərcüməsidir". Əgər cümlə "bitmiş bir fikir ifadə edirsə", o fikri tərcümə etmək lazımdır, sözbəsöz tərcümə elə söz yığını olacaq. Fikrin tərcüməsi – bu ən düzgün meyardır.

Həmişə deyirəm ki, tərcümə mənim üçün, hər şeydən əvvəl, dil hadisəsidir. Orijinal moltanı dilində də olsa, əsər mənim dilimdə danışmalıdır. Tərcümənin qarşısına qoyulan elmi tələblər, nəzəri müddəalar məlumdur. Amma mən tərcümə etdiyim əsərin dili üzərində çox işləyirəm, onu öz dilimdə – azərbaycanca və yenidən yazıram, çünki o kitabı mənim dilimdə danışanlar oxuyacaq.

Pis necə tərcümə edim – bilmirəm. Və ümumiyyətlə, pis necə tərcümə etmək olar? Ya get özünə başqa iş tap, ya da düzgün tərcümə elə. Bir əsəri tərcümə edərkən mən onun daxili aləminə girirəm. Bütün hadisələrdə iştirak edirəm, xarakterlərə qarışıram.

Təəssüflə qeyd edim ki, mən 30 il qabaq daha yaxşı tərcüməçi idim, o zaman mənim tərcüməçiliyim heç kimə lazım olmadı. Ən tanınmış isimlər də laqeyd qaldı. Sonra da deyirlər ki, Azərbaycan ədəbiyyatını xarici dillərə kim tərcümə etsin? Naşir deyir ki, sizin kimi tərcüməçi 40 ildə yetişir, amma yüksək qonorar verə bilmirəm.

***– Buna baxmayaraq, ötən illərdə az tərcümə etməmisiniz...***

– İndiyədək 38 kitab tərcümə etmişəm, 32 kitab ingilis dilindən Azərbaycan dilinə, 6 kitab da Azərbaycan dilindən ingilis dilinə. Bunun üstünə gəlin AZƏRTAC-ın ingilis dilindəki saytını. Biz bu saytı, bu səhifəni böyük əziyyətlə başa gətirdik. Bu sayt ən samballı kollektiv işimizdir. Operativ, dəqiq, qərəzsiz, gecə-gündüz informasiya müharibəsi aparırdıq. Bizim işimiz haqq işi idi və qalib gəldik. Amma bu 30 il çəkdi. Bu illər ərzində özüm də 5 kitab nəşr etdirdim – 3 şeir, 2 publisistik-esse toplusu.

***– Təcrübə göstərir ki, yaxşı tərcüməçilər həm də ana dili normalarının pozulmasını daha tez görür və bununla barışmırlar.***

– Çünki tərcüməçinin xammalı xarici dildə, məhsulu öz dilindədir. Qəzetlərdə, ümumən, mediada dil qaydalarının pozulması halları kifayət qədərdir. Mütəxəssislər arasında bu və ya digər dil qaydaları ilə bağlı da yekdil fikir yoxdur, hərə bir tərəfə çəkir və bu qarışıqlıq davam edir. Bu gün, sanki, hər kəs dilçi olub, sosial şəbəkədə hər kəs dil haqqında fikir yürüdür. Min illərdir ki, dilimizdə oturuşmuş sözlərə qarşı müharibə elan edirlər. "Bu söz farscadır, bu söz ərəbcədir, bu söz ruscadır, gərək təzə söz tapaq, türk dilindən gətirək".

Axı niyə? Min illik ədəbiyyatımızı neyləyək? Nə qədər ki, hər kəs öz işi ilə məşğul deyil, bu kütləvi əllaməlik davam edəcək. Bu halların qarşısı ən yüksək səviyyədə və inzibati yolla alınmalıdır. Ulu öndər necə demişdi: "Bəlkə də, biz özümüz dilimizin gözəlliyini bir o qədər dərk edə bilmirik. Azərbaycan dili çox gözəl dildir!".

Bu gün dilimizə dodaq büzüb, ona arxa çevirib yabançı sözlər işlədən insanlar çoxdur. Bu meyl kütləvi hal alsa, dilimiz küncə sıxışdırılar. Məsələn, "görməzdən gəlmək" ifadəsini kim və niyə gətirib dilimizə? Sadəcə, "göz yummaq", "görməmək", görməzliyə vurmaq", "barmaqarası baxmaq" demək olmazmı?!

Bir şeyi də qeyd edim. Tərcümə ilə bağlı bəzən məmurlarla üz-üzə gəlməli olursan. Rəsmi qurumların adlarını ingilis dilində işlətməyi normal hal hesab edirlər. Mövzu böyükdür və ağrılıdır. Sonda ümummilli lider Heydər Əliyevin bir mülahizəsini də xatırlamaq yerinə düşər: "Biz türkdilli xalqların ailəsinə mənsub olan bir xalqıq. Ancaq bunun çox şaxələri var. Bunun bir şaxəsi də Azərbaycan dilidir. Dilimiz Azərbaycan dilidir". Ulu öndər bu sözləri qətiyyətlə, bəzi yanlış tendensiyalara cavab kimi deyərək məsələyə nöqtə qoyub.

***– Firidun müəllim, sizi ömrünüzün yetkinlik çağına belə gənclik duyğuları, müdriklik düşüncəsi ilə çatmağınız münasibətilə XQ-nin çoxsaylı oxucuları adından təbrik edirik. Bundan sonra da yorulmayasınız, qocalmayasınız! Sizə mənəvi xəzinələrə yeni qapılar açmağı arzu edirik!***

**Söhbəti apardı:**
**Tahir AYDINOĞLU**
**XQ**

Qayıdışın akkordları

**Xoş, günəşli 4 fevral səhərində Xocalı yeni doğulmuş çağa səsi ilə şadlandı, körpə qığıltısı gecənin qaranlığını pərən-pərən saldı. Düşmən tapdağından azad edildikdən sonra bu əzəli, əbədi türk yurdunda ilk dəfə dünyaya göz açan azərbaycanlı balası təkcə ailəsinə deyil, bütöv bir xalqa sevinc payı oldu. Hamımızın ürəyindən "bizə bu günləri bəxş edən Allaha şükürlər olsun" nidası qopdu.**

"Xalq qəzeti"nin bölgə müxbiri olaraq Xocalı rayonunun Ballıca kəndində doğulan Mehdinin müjdəli xəbərini birinci paylaşmağın verdiyi qürurla Məmmədovlar ailəsinin qonağı olduq, tanrının bəxş etdiyi oğul payının sevincini, həyəcanını yaşayan

# Azad Xocalının ilk körpəsi

## Babasının adı verilən Mehdi qoy onun taleyini yaşamasın





atası İlqara, baba və nənəsinə gözaydınlığı verdik.

**İlqar Məmmədov bizimlə söhbətində bildirdi ki, uşağın da, anası Sevanə xanımın da vəziyyəti qənaətbəxşdir:**

– Şəhərə yaxın Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzinə etdiyimiz zənglərə çox operativ reaksiya verildi və qısa müddətdə həm Xankəndi şəhərindən, həm də Şuşadan həkim briqadaları özlərini yetirdilər. Həkimlər hər şeyin qaydasında olduğunu dedilər, uşağın və anasının sağlamlığını nəzarət altında saxlamaq məqsədilə onları Bərdə rayon Doğum Evinə yerləşdirdilər. Fürsətdən istifadə edib hər zaman sağlamlığımızın keşiyində dayanan səhiyyə işçilərinə dərin təşəkkürümü bildirirəm. Sağ olsunlar ki, zəng edən kimi gəldilər.

**Babasının adını daşıyacaq Mehdinin çəkisi 3,7 kiloqram, boyu isə 51 santimetrdir. İlqar Məmmədov Xocalıda doğulmuş ilk körpənin valideyni olduğu üçün özünü çox xoşbəxt hiss etdiyini dedi:**

– Ballıcaya köçdüyümüz, ata-baba yurdunda yenidən məskunlaşdığımız cəmi 15 gündür. Xəbəri eşidəndə yoldaydım, Bakıdan qayıdırdım. Həyəcandan heç bilmədim yolun qalanını necə gəldim. Sevincimin həddi-hüdudu yoxdur. Çox xoşbəxtəm ki, işğaldan azad edildikdən sonra doğma Xocalıda ilk dünyaya gələn körpənin atasıyam!

Məlumat üçün qeyd edək ki, İlqar 2016-cı il aprel döyüşlərinin, Vətən müharibəsinin iştirakçısıdır. Şanlı ordumuzun giziri kimi torpaqlarımızın azad edilməsi uğrunda neçə-neçə qanlı döyüşlərə qatılıb, iki dəfə yaralanıb. Onun xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilib, çoxsaylı təltifləri var. Ərazi bötüvlüyümüzün və suverenliyimizin tam bərpasından sonra ordu sıralarından tərxis olunsa da, Vətən qarşısındakı borcunu bitmiş hesab etməyib. Hazırda Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) əməkdaşı kimi mənfur düşmən tərəfindən minalanmış torpaqlarımızın təmizlənməsində iştirak edir.

Biz illər boyu bu günlərin xəyalı ilə yaşamışıq. Doğma ev-eşiyindən məcburi köçkün düşmüş insanlarımız hər oğul evləndirəndə, qız köçürəndə "gün o gün olsun ki, növbəti xeyir işlərimizi Qarabağımızda, Şərqi Zəngəzurumuzda edək, övladları o müqəddəs torpaqlarımızda doğulsun", – deyə dualar etmişik. Bu gün Vətən yolunda canını qurban vermiş şəhidlərimizin, sağlamlığını itirmiş qazilərimizin və sarsılmaz qətiyyəti, polad iradəsi sayəsində Azərbaycanı qalib ölkəyə çevirmiş müzəffər Ali Baş Komandanımızın sayəsində dualarımızın qəbul olunduğu, xəyallarımızın reallığa çevrildiyi gündür. Bundan sonra yeni xocalılılar Mehdi kimi öz ata-baba yurdlarında doğulacaqlar. Qədəmlərin mübarək, oğul bala, azad yurdunda xoşbəxt böyü!

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xocalı**

SOSİAL XƏBƏRLƏR

### "Himayədar ailə" maarifləndirməsi



**"Himayədar ailə" qayğı modeli və övladlığagötürmə sahəsində, həmçinin "Valideyn himayəsindən məhrum olmuş uşaqlar, himayədar ailə və övladlığagötürmə altsistemi" ilə bağlı məlumatlılığın artırılması məqsədilə maarifləndirici bukletlər hazırlanıb.**

Bukletlər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyin, Sosial Xidmətlər Agentliyinin qəbul şöbələrində və DOST mərkəzlərində vətəndaşlara paylanılıb.

### 1 həftədə 170 məşğulluq

**Dünya Bankının maliyyə dəstəyi ilə həyata keçirilən "Məşğulluğa Dəstək Layihəsi" iştirakçılarının aktivlərlə təminatı davam edir. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyidən XQ-yə bildirilib.**




Qeyd edilib ki, layihə üzrə son bir həftədə daha 170 işsiz və işaxtarana aktivlər təqdim edilib və onlar aldıqları aktivlər hesabına kiçik təsərrüfatlarını qurublar. Özünüməşğulluq proqramının genişlənməsinə dəstək olan layihə həssas əhali qruplarının – əlillər, şəhid ailəsi üzvləri, ünvanlı dövlət sosial yardımı alanlar və digərlərinin kiçik biznesə çıxışına dəstək verir.

Bir qaydaya olaraq layihəyə cəlb olunanlar üçün ilkin mərhələdə biznes təlimlər təşkil olunur. Təlimləri uğurla bitirənlərə seçdikləri istehsal və xidmət sahələri üzrə təsərrüfatlarını qurmaları üçün avadanlıqlar verilir.

***Z.HÜSEYNOVA***
***XQ***

**Ağaxan Abdullayev – 75**

# Muğamat var olan yerdə...

**Azərbaycanın milli muğam sənətinin görkəmli nümayəndələrindən biri də Xalq artisti Ağaxan Abdullayev olub. O, güclü, məlahətli və geniş diapazonlu səsi ilə hər kəsi heyran qoyub, sələflərinin yaradıcılıq ənənələrini layiqincə yaşadıb. Dövlət televiziya və radiosunun qızıl fondunda bənzərsiz ifaları qorunub saxlanılır.**



Ağaxan Meyxan oğlu Abdullayev 6 fevral 1950-ci ildə Bakı şəhərinin Türkan kəndində anadan olub. 84 saylı orta məktəbi və musiqi məktəbinin tar sinfini bitirib. Sonra A.Zeynallı adına Orta İxtisas Musiqi Məktəbində Seyid Şuşinskinin davamçısı Nəriman Əliyevin sinifində təhsil alıb, bir müddət Əbilov adına Mədəniyyət evində muğam müəllimliyi edib. Müsahibələrinin birində əsl xanəndə kimi yetişməsində aldığı müvafiq təhsillə bərabər, Bakı toylarının böyük rolu olduğunu bildirib. Ardınca isə məzunu olduğu A.Zeynallı adına musiqi məktəbində muğam müəllimi kimi çalışıb. Orada dünya şöhrətli muğam ustası Alim Qasımova dərs deyib.

O özü gənc ikən muğamın hansısa bir guşəsini necə ifa etmək barədə Seyid Şuşinskidən, Əlibaba Məmmədovdan, Hacıbaba Hüseynovdan, Şövkət xanım Ələkbərovadan məsləhətlər almaqdan çəkinməyib. Düz 50 il əvvəl – 1975-ci ildə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının səhnəsində fəaliyyətə başlayan sənətkar Rusiya, Qazaxıstan, Gürcüstan, Özbəkistan, ABŞ, Kanada, Almaniya, Hollandiya, İsveç, Belçika, Avstriya, Fransa, Avstraliya, Hindistan, İraq, Tunis, Türkiyə, İran və s. ölkələrdə konsert proqramları ilə çıxışlar edib.



...Ağaxan Abdullayevin 20 il əvvəl Təbrizdə verdiyi konsertin videokadrlarına baxıram. Səsinin "rəngləri" salonda əlvan bir aura yaradır. Musiqisevərlər Təbrizin "dolanbadolan" küçələrindən axışıblar ora, tez-tez sənətkarın ifalarını alqışlayırlar. Ağaxanın ağayana tövrləri də bəyənilir, qavalını sevə-sevə "şapalaqlayır". Arada "Nərgizim"i oxuyur. Elə bilirəm ki, "Təbrizim" deyir. Oxuya-oxuya, sanki, özünü dinləyir, öz varlığını hiss edir. Üşşaqları, əraqları, mayələri, zəngulələri, təsnifləri sehirli təsir bağışlayır. Elə bil ki, hələ 100 il əvvəl təşkil edilən "Şərq konsertləri"ndən biridir. Burada hasarları aşan azanabənzər çağırışlar da var, uca səs "minarə"ləri də könül oxşayır:

*Quru yer üstə qədəm qoyma,*
*minnətin çəkirəm,*
*Göz üstə qoy qədəmin,*
*yari mahiparə, yeri...*

Onu dinlədikcə düşünürəm ki, bu möcüzəni yalnız uşaqlığından Bakı kəndlərində muğamlarımızı, necə deyərlər, hərf-hərf, səs-səs öyrənən bir sənətkar yarada bilər. Bakı kəndləri də, bəllidir ki, muğam hadisələrinin episentridir. Səs və ifa möcüzələri burdan dalğa-dalğa yayılaraq ta Təbrizə, Daşkəndə, Dehliyə, Bağdada, Parisəcən gedib çıxır...

Məşhur xanəndələrin Azərbaycan Milli Konservatoriyasının fəxri professoru, Xalq artisti Ağaxan Abdullayev haqqında söylədikləri onun sənətkarlığına yüksək həmkar dəyərləri kimi maraqlıdır. Bəzi sitatları yada salaq.

***Xalq artisti Arif Babayev:*** "Ağaxan Abdullayev haqqında danışmağa çox söz var. O, gözəl sənətkar, ailə başçısı idi. Yəni hərtərəfli adam idi. Ağaxan əsl xanəndə idi, mən deyən xanəndələrdən. Onda kişi hökmü var idi. Uzun müddətdir dostluq edirdik. Təəssüflər olsun ki, çox tez dünyasını dəyişdi. Axır günlərində Ağaxan oğluna toy edəndə onu görüb çox pis oldum. O, bizim sıramızdan gedəndə – dünyasını dəyişəndə bir neçə gün özümə gələ bilmədim. Ağaxan haqqında nə qədər desən, danışmaq olar. Onun səsi hər zaman xalqımıza lazım olacaq və onu qoruyub saxlamaq lazımdır".

***Xalq artisti Mənsum İbrahimov:*** "Ağaxan Abdullayev Azərbaycan klassik muğam sənətinin görkəmli nümayəndələrindən biri idi. Mən hələ Ağaxan müəllimi Asəf Zeynallıda oxuyan vaxtımdan tanıyırdım. Yəni hardasa 30 ildən çoxdur ki, tanışlığımız var idi. Elə oldu ki, biz onunla dəfələrlə xarici ölkələrdə, Azərbaycanın müxtəlif bölgələrində səfərlərdə olduq. Televiziya Muğam Müsabiqələri başlayandan – 2005-ci ildən münsif yoldaşı idik. Müsabiqələr zamanı bölgələrdən uşaqların seçilməsində, məclislərdə, dövlət tədbirlərində, demək olar ki, hər yerdə birlikdə olmuşuq.

Ağaxan müəllim həm də gözəl insan idi. Bu insanda paxıllıq hissi yox idi və hər zaman yaxşılıqla məşğul olur, insanlar üçün əlindən gələni edirdi. Mən ancaq onda gözəl keyfiyyətlər görmüşəm. Xalqımızın, dövlətimizin sevimli sənətkarı idi. Dəfələrlə şahidi olmuşam ki, Azərbaycanın istənilən bölgəsinə gedəndə onu necə hörmətlə qarşılayırdılar. Təbii ki, özü fiziki cəhətdən aramızda olmasa da, ruhən həmişə bizimlədir. Çünki onun qoyub getdiyi sənət, səs, ifalar hər zaman xalqımızın qəlbində yaşayacaq".

***Xalq artisti Nəzakət Teymurova:*** "Onun yeri hər zaman görünəcək. Böyük ustadlarımızdan biri idi. Mən Ağaxan müəllimlə Fransada, Macarıstanda, Rusiyada, Almaniyada və bir çox ölkələrdə səfərdə olmuşam. İfalarından sonra bütün salon onu ayaqüstə alqışlayırdı. Hər zaman Azərbaycan musiqisini yüksək səviyyədə təbliğ eləyib. Ağaxan müəllim bu dünyada dürüst yaşayıb. İstər gənclərə, istər həmyaşıdlarına qarşı hər zaman hörmətlə yanaşan, əlindən gələn köməyi edən bir adam idi. Çalışıb ki, muğamlarımız qorunub saxlanılsın. Allah Ağaxan müəllimə rəhmət eləsin".

Bu yazını hazırlayanda unudulmaz sənətkarın tələbəsi olmuş Xalq artisti Alim Qasımova zəng edib müəllimi haqqında sual verdik.

– Mənim ustadım olub Ağaxan müəllim, – dedi. – Bizə muğamı bütün incəliklərinə qədər öyrədirdi. Uğurlarımıza ürəkdən sevinirdi. Təvazökarlıqdan uzaq olsa da, xatırladım ki, müsahibələrinin birində deyib: "25–30 tələbənin içindən bir Alim Qasımov çıxırsa, mənə bəs edir". Yumor hissi, baməzəliyi də güclü idi (Amma biz tələbələri ilə həmişə ciddi davranırdı). Bir dəfə çıxışı zamanı zilə qalxanda operator onu lap yaxından çəkirmiş. Kameranın işığı gözünü qamaşdırdığına görə operatora zarafatla deyib ki, işığı "dalni" yandırma, "blijni" elə, "blijni"...

Onun oğlu Xoşbəxtin toyunda Elnarə Abdullayeva, Simarə İmanova və mən də çıxış edərək təzəbəyə xoşbəxtlik arzulamışıq. Xatirələr çoxdur. Heyf ki, aramızdan çox tez getdi. Yadıma düşür ki, Suraxanı rayonundakı Səttar Bəhlulzadə adına Mədəniyyət Sarayında Xalq artisti Ağaxan Abdullayevlə vida mərasimi keçirilirdi. Mənə də söz verdilər. Görkəmli sənətkarla bağlı xatirələrimi bölüşdüm və avazla muğam parçası oxuyub onun ruhuna həsr elədim...

Böyük sənətkar muğama bağlılığını sadə dillə belə izah edirdi: "Muğam mənim həyatımdır. Həyatımı ailəm, övladlarım olmadan təsəvvür etmədiyim kimi, muğamsız da təsəvvür etmirəm. Daha geniş mənada əhəmiyyətinə gəlincə, muğam xalqımız üçün təməl daşı, mənəviyyatımızın əzəli mənbəyi, qan yaddaşımız, genimizin kodudur. Şübhə etmirəm ki, bütün dünyada muğamı sevməyən, muğamla mübhəm tellərlə bağlı olmayan əsl azərbaycanlı yoxdur. Bu qədim xalq yaradıcılığı növü hamımızın içindədir, milli mənliyimizə, şüurumuza həkk olunub".

Ağaxan Abdullayev "Şöhrət" ordeni, "Qızıl çinar" beynəlxalq, "Humay" və "Simurq" milli mükafatlarına layiq görülüb. Prezident təqaüdçüsü olub. Bakının Sabunçu rayonunda, söz-sənət məkanı olan Nardaran qəsəbəsində adına küçə var. Xəzər rayonundakı Türkan qəsəbə Mədəniyyət Evinə də görkəmli muğam ustasının adı verilib.

Uzun illər xərçəng xəstəliyindən əziyyət çəkən Ağaxan Abdullayev 25 dekabr 2016-cı ildə, 66 yaşında vəfat edib. Vəsiyyətinə əsasən, Türkan kənd qəbiristanlığında valideynlərinin yanında torpağa tapşırılıb. Bakının Sabunçu rayonunda, sözün, sənətin daim uca tutulduğu Nardaran kəndində adına küçə var. Bir də onun adını musiqiyə bağlı olan övladları Meyxan, Xoşbəxt, Hikmət və Orxan layiqincə yaşadırlar.

Mərhumun adını daşıyan nəvəsi Ağaxan Abdullayev isə babasının ona vəsiyyətini açıqlayıb: "Babam həmişə məni gəzdirib, getdiyi yerə aparıb. Onlara getməyən kimi, zəng edirdi gəl. Deyirdi ki, istəyirsən xanəndə olmaya bilərsən, amma adımı şərəflə daşı".

***Əli NƏCƏFXANLI***
***XQ***

**Polad Bülbüloğlu – 80**

# Böyük səhnədə yubiley məclisi



**Heydər Əliyev Sarayında Xalq artisti, görkəmli müğənni, bəstəkar, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlunun 80 illik yubileyinə həsr olunan "Qayıdış" adlı gecə keçirilib.**

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə reallaşan konsert proqramını dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, ictimaiyyət nümayəndələri və Polad Bülbüloğlu musiqisinin pərəstişkarları izləyiblər.

Əvvəlcə Polad Bülbüloğlunun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2025-ci il 3 fevral tarixli sərəncamı ilə 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeninə layiq görüldüyü bildirilib və sərəncamın mətni oxunub. Sonra Rusiya Prezidentinin Beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy qonşu ölkənin dövlət başçısının, Baş nazir və bir sıra hökumət üzvlərinin qocaman sənətkara yubiley təbriklərini çatdırıb.

Daha sonra konsert proqramı təqdim olunub. Xalq artisti Polad Bülbüloğlu onilliklərdən bəri musiqisevərlərin könlünü oxşayan əsərlərini, xalq mahnımızı oxuyub. Onu tanınmış pianoçular, Xalq artistləri Fərhad Bədəlbəyli və Murad Adıgözəlzadə, Azərbaycan Dövlət Rəqs Ansamblının üzvləri də müşayiət ediblər. Gecədə digər ünlü sənətçilər də musiqi çələngi təqdim ediblər. İfaçıları Murtuza Bülbülün dirijorluğu ilə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri müşayiət edib.

Yubilyar sənətkarın ifasında "Şən Azərbaycan" mahnısı ilə başlayan gecə bəstəkarın "Odlar yurdum mənim" nəğməsi ilə başa çatıb.

***XQ***

# Soydaşımız "Türk dünyasının ən yaxşı teatr aktyoru" oldu

**Xəbər verildiyi kimi, Xalq artisti Fəxrəddin Manafov İstanbulda TÜRKSOY-un təsis etdiyi "Beynəlxalq teatr" mükafatının "Türk dünyasının ən yaxşı teatr aktyoru" nominasiyası üzrə qalib seçilib. Yüksək mükafat ona və digər nominasiyalar üzrə fərqlənənlərə qədim şəhərin Mask-Kara Teatrının "Tamer Levent" səhnəsində təqdim olunub.**




Qeyd edək ki, həmyerlimizlə bərabər, Qazaxıstan yazıçısı Duman Ramazan, Qırğızıstanın İssıqlgöl vilayəti Kasımali Jantoşev adına Musiqili Dram Teatrının rejissoru Ulanmırza Karıpbayev, Mukimi adına Özbəkistan Dövlət Musiqili Teatrının baş rəssamı Jaloliddin Rahimov, Türkiyənin Dokuz Eylül Universitetinin İncəsənət fakültəsinin səhnə sənətləri bölməsinin müəllimi Sibel Erdenk və Şimali Kipr Türk Cümhuriyyətinin teatr aktrisası Ayla Haşmetli də mükafata layiq görülüblər. Onların hər biri Beynəlxalq Anadolu Teatr Mükafatları münsifləri tərəfindən 2024–2025-ci teatr mövsümündə incəsənətin bu növünə verdikləri töhfələrə görə seçilib.

Fəxrəddin Manafov jurnalistlərə müsahibəsində deyib: "Hər bir yaradıcı insan üçün istər hansısa mükafat və ya adi bir söz böyük əhəmiyyət kəsb edir. İnsan dünya qurulduğu andan yaşayır və Ulu Tanrı bizə saysız seçimlər verir. Hər bir insan isə bəlkə də özünün şüuraltında olan istiqaməti seçir. Mən də bu istiqaməti seçdim. Nədənsə, bilmirəm, bir səhər gözümü açdım və gördüm ki, bu sənət məni öz arxasınca apardı və ağuşuna aldı. Sənətim yeganə yerdir ki, harada mən öz narahatlığımı, sevgimi, nifrətimi, ağrımı, düşüncələrimi, ümumiyyətlə insana xas bütün hisslərimi tapa bilirəm. İncəsənət təsəllimi tapdığım, özümü dünyanın bir parçası hiss etdiyim yerdir".

***XQ***



# Gənclərin aviakosmik potensialı

**Milli Aviasiya Akademiyasında Azərbaycan Gəncləri Gününə və ölkəmizin ilk telekommunikasiya peyki "Azerspace 1"in orbitə buraxılması tarixinə həsr olunan "Fevral məruzələri 2025: Aviakosmik məsələlərin həllində gənclərin yaradıcı potensialı" 10-cu beynəlxalq elmi-praktik gənclər konfransı davam edir.**

Konfransa Rusiya, Qazaxıstan, Türkiyə, Ukrayna, Belarus, Almaniya, Böyük Britaniya, Fransa, İsrail və Azərbaycandan olmaqla, 20-dən çox elm və təhsil müəssisəsi, o cümlədən 13 universitet, 7 tədqiqat mərkəzi, institut, dövlət qurumları və aparıcı təşkilatları təmsil edən 150-dən çox iştirakçı qatılıb.

Əvvəlcə konfrans iştirakçıları "MAA-nın yaradıcı tələbələrinin innovativ layihələri" adlı sərgi ilə tanış olublar. Sonra "Texnoritm Mərkəzi – MAA-nın innovativlik göstəricisi kimi" mövzusunda təqdimat olub. Konfransı açan MAA-nın birinci prorektoru Ədalət Səmədov MAA-nın rektoru akademik Arif Paşayevin tədbir iştirakçılarına təbrikini çatdırıb. Qeyd olunub ki, builki "Fevral məruzələri"nə doqquz bölmə üzrə aerokosmik sahənin müxtəlif istiqamətlərinin aktual problemlərinə dair 130-dan çox məruzə təqdim edilib.

Açılış mərasimində iştirak edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov konfransın əhəmiyyətini vurğulayıb, aviasiya sahəsində əldə olunan uğurlardan danışıb. Qeyd edib ki, hava nəqliyyatı ölkəyə çox böyük gəlirlər gətirir və aviasiya sahəsində aparılan işlər ölkənin siyasətinin göstəricisidir.

Plenar iclasda Dünya Azərbaycanlı Alimlər Birliyinin sədri Məsud Əfəndiyev "Xaricdə yaşayan azərbaycanlı alimlərin Azərbaycan elm və təhsilinə inteqrasiyası", Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) direktor müavini Soltan Bayramov "Sənaye 4.0 texnologiyaları və aerokosmik sənaye", Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının İdarə Heyətinin sədri Elvin Balacanov "Kritik informasiya infrastrukturunun təhlükəsizliyinə təhdid yaradan əməllərin kriminallaşdırılması: beynəlxalq və milli hüquqi yanaşma" mövzularında çıxış ediblər.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

Beynəlxalq həyat

# Suriya labirintdən çıxmağa çalışır

## *Bunun üçün məqsəd və siyasi iradə ortaya qoyulub*

**Suriya inqilabının rəhbəri Əhməd aş Şaraanın Ankaraya rəsmi səfəri, burada apardığı müzakirələr, səsləndirdiyi bəyanatlar dünyanın əksər siyasi mərkəzlərində diqqətlə izlənilərək araşdırılır. Regionda Türkiyənin liderliyi ilə dövlətlərarası münasibətlərin yeni modeli qurulur. Suriyaya bu prosesdə xüsusi yer ayrılıb.**



Dövlət başçıları Rəcəb Tayyib Ərdoğan və Əhməd aş Şaraa birgə keçirdikləri mətbuat konfransında bildiriblər ki, Türkiyə və Suriya xalqları öz əlaqələrini strateji müttəfiqlik səviyyəsinə yüksəltmək əzmindədir. Reallıq budur ki, tərəflər bölgədə sülhün və sabitliyin bərqərar olunması üçün qətiyyətli siyasi iradə ortaya qoyublar.

Bu gün planetimizdə yeni dünya nizamı formalaşır. Hazırda bu istiqamətdə kəskin tektonik proseslər baş verir. Yaxın Şərq xalqları da seçim qarşısındadır. Ya əvvəlki onilliklərdə olduğu kimi imperialist güclərin maraqlarına tabe olmalı, ya da özləri öz ölkələrinin inkişaf və tərəqqisinin qayğısına qalmalıdırlar. Ankara ikinci yolu təklif edir və bu, əlbəttə, şərəfli və qürurverici bir missiyadır.

Qərbdə hesab edirlər ki, Suriyada əhaliyə gün işığı verməyən qəddar Əsəd klanının süqutu Türkiyənin cızdığı ssenari üzrə həyata keçirilib. Bu, bir həqiqətdir ki, son illər Ankaranın bölgə xalqları dövlətlərinə təsiri artıb. Lakin Türkiyə hər bir tərəfdaşı ilə öz münasibətini qarşılıqlı inam və etimad əsasında qurur. Paralel xətlər heç vaxt kəsişmir. Türkiyə qonşuları ilə əlaqələrdə məhz bu prinsipdən çıxış edir.

Bu gün dünya, həqiqətən, çalxalanır. Kim güclüdür, özünü haqlı sayır və yalnız "mənim sözüm keçməlidir" deyir. Qərb dövlətləri bu gün də müsəlman şərqinə qarşı bölücü və sömürücü siyasət yürüdürlər. Amma Türkiyə öz xalqına rəva bildiyi və qoruduğu bəşəri dəyərləri, yəni sülhü, rifahı, tolerantlığı və ən başlıcası ədaləti qətiyyətlə zor və şərin artan təzyiqlərinə rəğmən müdafiə edir və bunu öz qonşularına da arzulayır.

2009-cu ildə ABŞ prezidenti Barak Obamanın elan etdiyi bədnam "Ərəb baharı" layihəsi bölgə xalqlarına, eləcə də Suriya əhalisinə ağır məhrumiyyətlər gətirdi. Bu ölkənin 23 milyon əhalisinin, az qala, yarısı qaçqın və köçkünə çevrildi. 1 milyona yaxın insan həlak oldu. Onların çoxu uşaq, qadın və ahıllardır. Qərbin demokratiya ixracı, adətən, belə sonuclanır. Ya da Əfqanıstanın, İraqın və başqa müsəlman ölkələrinin acı taleləri düşür.

Bu gün Suriyanı yenidən qurmaq, dirçəltmək lazımdır. Bu çətin gündə Türkiyə dövləti qonşu ölkəyə hərtərəfli dəstəyini göstərir. Son 13 ildə iqtisadiyyatı və infrastrukturu, demək olar ki, tamamilə dağıdılmış Suriyada sabitliyi və rifahı təmin etmək heç də asan deyil. Prezident R.T.Ərdoğan isə bildirib ki, Ankara axıradək Suriya xalqının yanında olacaq. Türkiyə heç vaxt başladığı humanist missiyanı yarımçıq qoymur.

Yeri gəlmişkən, Suriya lideri Türkiyədən əvvəl Səudiyyə Ərəbistanında da səfərdə olub. Rəsmi Ər-Riyad Dəməşqə bu ölkənin bərpası üçün ciddi maliyyə dəstəyi vəd edib. Lakin ən böyük ağırlıq, təbii ki, ilk növbədə, Suriya xalqının və dövlətinin üzərinə düşəcək. Suriya iqtidarı müdrik daxili və xarici siyasət yürütməli, ölkəsinin gələcək tərəqqisinin etibarlı bünövrəsini qurmalıdır.

Suriyaya xaricdən və daxildən təzyiqlər çoxdur. Ölkə hələ ərazi bütövlüyünü tam təmin edə bilməyib. Şimalda PKK-nın dəstəklədiyi kürd separatçıları hələ də at oynadırlar. Cənubda Qolan təpələri 1974-cü ildən bugünədək İsrailin işğalı altındadır. Amma haqqın qələbə çalacağına ümidlər çoxdur. İnanmaq istərdik ki, Suriya bu ağır labirintdən üzüağ çıxacaq,

İnsanlar öz xöşbəxtlik və səadətlərini, ilk növbədə, öz məmləkətlərində tapırlar. Suriyalı qaçqınlar, əlbəttə, öz doğma yurd yerlərinə qayıdacaqları günü böyük səbirsizliklə gözləyirlər. Qaçqınların bir hissəsi artıq öz evlərinə dönüblər. Onlar Türkiyə dövlətinə və xalqına çox minnətdardırlar. Çox hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın adı isə bu ölkədə dillər əzbəridir.

4 milyondan çox suriyalıya arxa, həyan duran türk xalqı bu məsələdə də bütün dünya üçün humanizm örnəyi olub. Türkiyə məhz buna görə də təkcə Suriyada deyil, dünyanın çox guşəsində sevilir və seçilir. Bu, hər xalqın hünəri deyil, yalnız yüksək, nəcib niyyətlərə, dəyərlərə malik olan xalqlar "yumşaq güc"ə çevrilə bilirlər. Yeni türk sivilizasiyasının gücü bundadır!

***Məsaim ABDULLAYEV***
***XQ***

# Ticarət müharibəsi, yoxsa iqtisadi filtr?

**Fevralın 4-də ABŞ fond bazarı Ağ evin Kanada, Meksika və Çinə idxal tarifləri tətbiq edəcəyi xəbəri ilə dəyər itirdi. Vaşinqton Ottava və Mexiko ilə tarifləri təxirə salmaq barədə razılığa gəldikdən sonra fond birjaları bir qədər rahat nəfəs aldı. Bununla belə, "Bloomberg" agentliyi yazır ki, ABŞ və Çin arasındakı ticarət müharibəsi yeni güclə alovlanır. Bəs yeni ticarət müharibəsi dünya üçün nə vəd edir?**



Seçki kampaniyası zamanı verdiyi vədi yerinə yetirən ABŞ prezidenti Donald Tramp həftə sonu Çindən idxal edilən bütün mallara 10 faizlik gömrük rüsumunun tətbiqi ilə bağlı sərəncam imzaladı. Yeni rüsumlar fevralın 4-dən qüvvəyə mindi. ABŞ prezidenti rüsumların tətbiqini onunla əsaslandırır ki, Çin Birləşmiş Ştatlarda epidemiyaya səbəb olan fentanilin istehsalı üçün prekursorların əsas mənbəyidir. Bəs statistika nə deyir? Rüsumlar Çinə və dünya ticarətinə necə təsir göstərəcək? Məlumatlarda 2024-cü ildə ilk 11 ayında ABŞ-ın 401 milyard dollar dəyərində Çin malları idxal etdiyi bildirilir. 2023-cü ildə ABŞ-ın Çin ilə ticarət kəsirinin, təxminən, 270 milyard dollar təşkil etdiyi məlumdur. Bu, Çinin ABŞ-a tədarükünün ABŞ-ın Çinə tədarükünü 200 milyard dollar ötməsi deməkdir. Prezident Tramp bu fərqi aradan götürəcəyini və Amerika sənayesini canlandıracağını bildirir.

ABŞ-ın yeni tarifi qeyri-müəyyən müddətə qüvvədə qalacaq. Prezidentin sərəncamı Çinin cavab rüsumları tətbiq edəcəyi təqdirdə tariflərin daha da qaldırıla biləcəyinə eyham vurur. Ancaq bu, Çini qorxutmadı, Pekinin cavabı özünü çox gözlətmədi: tariflər xam neft, kömür, mayeləşdirilmiş təbii qaz və müəyyən növ avtomobillər də daxil olmaqla, 80 adda ABŞ məhsuluna tətbiq edildi. İdxal rüsumlarının mübadiləsi faktiki olaraq ABŞ və Çin arasında yeni ticarət müharibəsinin başlanğıcıdır. Hüquq ekspertləri Trampın bir presedent yaratdığını iddia edirlər: ilk dəfə tarif qərarları qanuni olaraq 1977-ci il Beynəlxalq Fövqəladə İqtisadi Səlahiyyətlər Aktına əsaslanır. Qeyd olunur ki, həmin qanun Rusiyaya qarşı iqtisadi sanksiyaların tətbiqi üçün əsas sayılır. "Wiley Rein" konsaltinq şirkətinin vəkili Tim Brightbill "Reuters" agentliyinə müsahibəsində bildirib ki, məhkəmələr ənənəvi olaraq prezidentin fövqəladə tədbirlər tətbiq etmək səlahiyyətini, xüsusən də milli təhlükəsizliyə aid olduqda təsdiqləyirlər: "Sual budur ki, bu, tariflər ola bilərmi? Çünki IEEPA əvvəllər yalnız sanksiyalar üçün istifadə olunurdu". Politoloqlar da bildirirlər ki, Prezident Tramp potensial məhkəmə çəkişmələrindən və tariflərlə bağlı ictimai məsləhətləşmədən qaçmaq üçün məhz IEEPA-dan istifadə etdi.

ABŞ-ın qərarından narahat olan Çin Vaşinqtonun birtərəfli tariflərinin Ümumdünya Ticarət Təşkilatının (ÜTT) qaydalarını pozduğunu və "Çin və ABŞ arasında normal iqtisadi və ticarət əməkdaşlığına xələl gətirdiyini" bildirdi. Pekin ABŞ kömür və mayeləşdirilmiş təbii qazına 15 faiz, onlarla başqa məhsula, o cümlədən xam neftə, mühərrik həcmi 2,5 litr və ya daha çox olan yüngül yük maşınlarına və bəzi kənd təsərrüfatı maşın və avadanlıqlarına 10 faizlik rüsum tətbiq etdi. Statistikaya görə, Çinin rüsum tətbiq etdiyi məhsulların ümumi dəyəri təxminən 14 milyard dollardır. Bu, ABŞ-ın Çinə ümumi idxalının 8,5 faizini təşkil edir. Ən böyük məhsul neft (2024-cü ildə 6 milyard dollar), sərnişin avtomobilləri (3,1 milyard dollar), LNG (2,4 milyard dollar) və kömürdür (təxminən 2 milyard dollar). Qalan mövqelər 0,3 milyard dollar bərabərdir.

Bundan başqa, Çinin Ticarət Nazirliyi nadir metalların (volfram, tellur, vismut, indium, molibden) istənilən ölkəyə ixracına məhdudiyyətlərin tətbiq olunduğunu açıqladı. Nazirlik "milli təhlükəsizliyin qorunması maraqları baxımından" bu metallardan hazırlanmış bəzi məhsulların ixracı yalnız lisenziyalar əsasında mümkün olacaq. "Reuters" qeyd edir ki, Birləşmiş Ştatlar volfram hasilatını 2015-ci ildə, təmizlənmiş vismut istehsalını isə 1997-ci ildə dayandırmışdı. Ekspertlərin sözlərinə görə, Çinin ABŞ-a cavabı təmkinli görünür və onun ticarət müharibəsini genişləndirməyə meylli olmadığını nümayiş etdirir. Mütəxəssislər qeyd edirlər ki, iki ölkə hələ də kompromis tapmağa qadirdir. ABŞ prezident administrasiyası bildirir ki, prezident Tramp yaxın günlərdə Çin lideri Si Cinpinlə danışmaq niyyətindədir.

Bəs ticarət müharibəsindən kim faydalanacaq? Ekspertlər iddia edirlər ki, ABŞ və Çin arasında yeni ticarət müharibəsi qlobal təchizat zəncirlərinə təsir etdiyi üçün bütün ölkələr üçün faydalı deyil. Ancaq bu da bir faktdır ki, Pekin hazırda altı il əvvəl Çinin Vaşinqtonla ilk ticarət qarşıdurmasının yaşandığı vaxtdan xeyli dərəcədə güclüdür. Mütəxəssislərin fikrincə, indi baş verənlər eyni ticarət dramının ikinci pərdəsidir, lakin güc balansında əhəmiyyətli dəyişiklik var. Yanacaq-enerji məhsullarının idxalına rüsumların tətbiqi, ümumiyyətlə, tez-tez baş verən hadisə deyil. Ona görə də, Çinin cavabı müəyyən dərəcədə güc nümayişi kimi xarakterizə edilir. Buna Pekinin əsasları da var. Bu gün Çin dünyanın ən böyük ticarət oyunçularından biridir, ölkənin xarici ticarət dövriyyəsi, təxminən, 3 trilyon dollar təşkil edir. Bununla belə, ekspertlər hesab edirlər ki, istənilən halda iki böyük güc arasında ticarət müharibəsi bütün ölkələrdə iqtisadi artımı azaldacaq.

***SE LAY***
***XQ***




# "PAŞA holding"də regional hüquq forumu

**Dünən"PAŞA holding" və onun törəmə şirkətlərinin təşkilatçılığı ilə keçirilən, hüquq sahəsində peşəkarları, ekspertləri və texnologiya liderlərini bir araya gətirən "LEGIS hüquq forum"u uğurla başa çatıb. Azərbaycanda ilk belə məclis olan forumda dövlət rəsmiləri, özəl sektorun nümayəndələri, 500-ə yaxın hüquqşünas iştirak ediblər.**

Açılış mərasimində iqtisadiyyat naziri Mikayıl Cabbarov, ədliyyə naziri Fərid Əhmədov, Prezident Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri Gündüz Kərimov, Baş prokuror Kamran Əliyev, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, "PAŞA holding"in baş icraçı direktoru Cəlal Qasımov, eləcə də holdinqin departament direktoru Aytac Qasımova çıxış ediblər.

Baş icraçı direktor Cəlal Qasımov çıxışında forumun əhəmiyyətini yüksək dəyərləndirib: "Ölkəmizdə ilk dəfə olaraq hüquq mövzusunda belə miqyasda tədbir keçirilir və bizim üçün bu forumun təşəbbüskarı və təşkilatçısı qismində çıxış etmək həm çox sevindirici, həm də çox qürurvericidir".

İştirakçılar müasir hüquq sistemlərinin qarşılaşdığı çağırışlar və innovativ həll yolları üzərində dayanaraq, rəqəmsal ekosistemin inkişafı və hüquqla inteqrasiyası, eləcə də yeni texnologiyaların qanunvericiliyə təsiri mövzularında fikir mübadiləsi apardılar.

Məclisin ən maraqlı məqamlarından biri robot Sofiyanın ifasında hüquq və innovasiyaların birgə inkişaf etdirilməsi, gələcəyin qanunvericiliyinin necə formalaşdırılması ilə bağlı təqdimat olub.

***XQ***

# ABŞ-da varlıların "nüvə" qorxusu

**"The Daily Mail" xəbər verir ki, nüvə müharibəsi zamanı dünyanın ən zəngin 625 adamını qorumaq üçün Virciniya ştatının Vaşinqton şəhəri yaxınlığında yeraltı bunker tikiləcək.**



Bunkerin dəyəri 300 milyon dollar təşkil edəcək. Nəşrin məlumatına görə, burada üzgüçülük hovuzları, bouling meydançası, qayayadırmanma divarı, süni intellektə əsaslanan sağlamlığın qorunması istemləri yer alacaq.

Qəzet qeyd edir ki, bunkerin divarlarının partlayışa davamlı olması, içərisinə silahlı mühafizəçilər və müasir hərəkət sensorları yerləşdiriləcək ki, bu da "istənilən xarici təhlükələrə qarşı durmağa və sakinlərin rahatlığını təmin etməyə" imkan verəcək.

The Daily Mail yazır ki, SAFE (Strategically Armored & Fortified Environments) şirkəti dünyanın ən zəngin insanları üçün "qiyamət günü bunkeri"nin tikintisi planlarını açıqlayıb, layihə 2026-cı ildə hazırlanacaq. Qəzetin qeyd etdiyi kimi, məsələn, realiti-şou ulduzu Kim Kardaşyan və media maqnatı Mark Zukerberq bu cür layihələrə maraq göstəriblər.

"Bu, təkcə sağ qalmaq deyil, həm də üslubda inkişaf etməkdir", – SAFE-in nümayəndəsi deyib. Şirkət bu konsepsiyanı ABŞ-ın digər ştatlarında da genişləndirməyi planlaşdırır.

Müştərilərə bunkerdə dörd kateqoriyalı imtiyazlar təklif olunacaq. Nəşrin qeyd edir ki, hətta "başlanğıc səviyyə" də uğurlu idarəçilər üçün nəzərdə tutulub və "sığınacaqda üzvlük" yalnız dəvətlə mümkün olacaq.

2022-ci ildə Rusiyada şəxsi bunkerlərə tələbat bir neçə dəfə artıb. BunkerHouse layihəsinin təsisçisi Nikita Malejikin sözlərinə görə, belə layihələrin həyata keçirilməsi iki-üç ay çəkir.

***FİDAN***
***XQ***

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti

*işçilərinin nahar, gecə növbəsi və xüsusi sifariş üzrə qida təminatının təşkilinin satın alınması məqsədilə*

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 25 fevral 2025-ci il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- +994 12- 599 -00- 03 (daxili 3704).

Ünvan- AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 26 (30720) 6 fevral 2025-ci il, cümə axşamı

**İdman**

# Vüqar Həşimov mükafatının qalibi

**Niderlandın Veyk-An-Zee şəhərində təşkil olunan nüfuzlu “Tata Steel Chess” turnirində Azərbaycanın mərhum şahmatçısı Vüqar Həşimovun adına təsis edilən “Fair play” mükafatının 2025-ci il üçün qalibi məlum olub.**



Azərbaycan Şahmat Federasiyasından verilən məlumata görə, turnirin bağlanış mərasimində mükafatın təsisçisi Qasım Həşimovun Avropa çempionu Vüqar Həşimovun adının yaşamasında həyata keçirdiyi layihələr, ölkəmizdə təşkil olunan Vüqar Həşimov Memorialının reallaşmasında gördüyü işlər yüksək qiymətləndirilib. Ardınca ötən ay dünyasını dəyişən Q.Həşimovun xatirəsi 1 dəqiqəlik sükutla yad olunub.

Bağlanış mərasimində əsas və “challenge” yarışı üzrə “Fair Play” mükafatını qazanan şahmatçılar təltif olunub. Vüqar Həşimov Fondu tərəfindən təsis edilən mükafat Nodirbek Abdusattarov (Özbəkistan) və Noqerbek Kazıbekə (Qazaxıstan) verilib. Qeyd edək ki, Vüqar Həşimov Fondu tərəfindən təsis edilən mükafat 2016-cı ildən verilir. Bu il “Fair Play” mükafatı 10-cu dəfə təqdim olunub.

# Məşhur şahmatçılar öndədirlər

**Şahmat üzrə Azərbaycan çempionatı davam edir.**



Kişi şahmatçılarımız arasında məşhurlar – Şəhriyar Məmmədyarov, Teymur Rəcəbov, Aydın Süleymanlı, Rauf Məmmədov 1/8 final mərhələsində 2 oyunun nəticəsinə görə, dörddəbir final mərhələsinə vəsiqə qazanıblar. Digər iştirakçılar Məhəmməd Muradlı Nicat Məmmədov, Eltac Səfərli Vüqar Əsədli, Vasif Durarbəyli Əhməd Əhmədzadə, Misrətdin İsgəndərov isə Nicat Abasovla heç-heçə etdiklərinə görə, tay-brekdə oynayacaqlar.

Qadınların yarışında isə Gövhər Beydullayeva, Ülviyyə Fətəliyeva, Xanım Balacayeva, Gülnar Məmmədova, Zeynəb Məmmədyarova, Səbinə İbrahimova növbəti mərhələyə keçiblər. Günay Məmmədzadə Lalə Hüseynova, Nərmin Kazımova Türkan Məmmədyarova ilə tay-brekdə qalib adı uğrunda mübarizə aparacaqlar.

# “Azərreyl” 2-ci pillədə

**Dünən kişi voleybolçular arasında Yüksək Liqada IX tura start verilib.**



İlk oyun günündə bir matç keçirilib. Voleybol Mərkəzində keçirilən yeganə matçda “Azərreyl” MOİK-lə üz-üzə gəlib. Görüş gözlənildiyi kimi, “dəmiryolçular”ın asan qələbəsi ilə başa çatıb. Bu qələbə “Azərreyl”i müvəqqəti də olsa ikinci pilləyə yüksəldib.

Qeyd edək ki, tura bu gün keçiriləcək “Gənclər” – “Neftçi” və “Xilasedici” – “Murov Az Terminal” oyunları ilə yekun vurulacaq.

**L.QURBANOVA**
**XQ**

***Korifeylərimiz***

# Qara Qarayevin bəşəri irsinin əbədiyaşarlığı

**Dünən Azərbaycan mədəniyyətinin görkəmli nümayəndəsi, dünya şöhrətli bəstəkar, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, akademik Qara Qarayevin ev-muzeyində dahi soydaşımızın anadan olmasının 107 illiyinə həsr olunmuş xatirə mərasimi keçirilib.**



Musiqişünas, Əməkdar incəsənət xadimi, professor Zümrüd Dadaşzadə, Xalq artisti Ülviyyə Hacıbəyova, TÜRKSOY-un keçmiş baş katibi Düsen Kaseinov və digər mədəniyyət və incəsənət nümayəndələri anım günündə iştirak ediblər. Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova bəstəkarın həyat və yaradıcılığından, əbədiyaşar irsindən danışıb. Ev-muzeyin direktoru Lətifə Kazımova çıxışında korifey sənətçinin musiqi mədəniyyətinin inkişafındakı misilsiz xidmətlərinə diqqət yetrib.

Çıxışlar Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin zəngin kolleksiyası əsasında hazırlanmış slayd-şou ilə müşayiət olunub. Mərasim Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının tələbələrinin, respublika və beynəlxalq müsabiqələrin laureatlarının ifasında Qara Qarayev və Fərəc Qarayevin əsərlərindən ibarət konsert proqramı ilə davam edib.

Sonda Qara Qarayevin qızı Züleyxa Qarayeva-Bağırova atasının xatirəsinə göstərilən ehtirama görə iştirakçılara təşəkkür edib: “Atamın sağlığında bu günü həmişə dostlar, qohumlar və sevimli tələbələri ilə birlikdə qeyd edirdik. İllər keçsə də onun sənətinə hörmət bəsləyənlər onu yad etmək üçün bir araya toplaşmağa davam edirlər. Hər kəsə bu sevgiyə görə minnətdaram”.

***

Həmin gün mədəniyyət və incəsənət xadimləri, müsiqisevərlər Fəxri xiyabana gələrək böyük ustadın xatirəsini ehtiramla yad edib, onun məzarı üzərinə gül dəstələri düzüblər.

**T.RÜSTƏMLİ**
**XQ**

***Yaddaş boxçası***

# “Qələbə” sözü və qələbə özü...

**Uzun müddət Şabranda uşaq bağçası-körpələr evində çalışmış, bir neçə il bundan qabaq dünyasını dəyişən Narı Baxşıyevanı bu gün də bölgədə "analar anası" kimi xatırlayır, yad edirlər...**



Mənimsə yadıma arabir onun dilindən eştdiyim bir xatirə düşür...

...1945-ci ilin 9 Mayında Qələbə xəbərini eşidəndə körpələr evində çalışan yaşlı-cavan qız-gəlin, bütün qadınlar sevinclərindən özlərini saxlaya bilməyib ağlayırdılar, hönkürənlər də var idi.

Dayələrinin belə göz yaşlarını son illər tez-tez görüb bir növ adət etmiş uşaqlar başa düşdülər ki, bu dəfə nəsə daha böyük bir hadisə baş verib.

O hadisə nə idi – balacaların hələ bundan xəbərləri yox idi. Onlar təkcə "qələbə" sözünü tez-tez eşidirdilər.

Ağlıkəsməz körpələr bu “qələbə”nin nə demək olduğunu hələ yaxşı anlamadıqlarından yaşlıların aramsız göz yaşları axıtdıqlarını görüb daha da qorxur, bir küncə çəkilir, bir-birlərinə qısılırdılar.

Bu isə dayələri bir az da kövrəldir, mütəəssir edirdi. Axır ki, onlardan biri özünü ələ alıb uşaqları bir-bir bağrına basaraq dedi:

– Dava qurtardı, balalar, biz Qələbə çalmışıq!

Körpələrin hələ də bir şey başa düşmədiklərini görən dayə əlavə etdi:



– Bundan sonra daha ac qalmayacaqsınız, verilən yeməklərdən də doyacaqsınız. İndi bildiniz ki, Qələbə nə deməkdir?!

Bir anda uşaqların şən hay-küyü otaqları bürüdü, uşaqlar da başa düşmüşdü ki, qələbə nədir!..

***Aydın TAĞIYEV***
***yazıçı-publisist***




# “Azərbaycan”ın yeni ildə ilk sayı

***Jurnalda Firuzə Məmmədlinin yubileyinə həsr olunan yazılar, şairin şeirləri təqdim olunub.***

Poeziya rubrikasında oxucular maraqlı şeirlərlə, yeni imzalarla tanış ola biləcəklər.

Nəsr rubrikasında Loğman Rəşidzadə “Yuxusu pozulanlar” romanı, Mübariz Cəfərlinin, Alpay Azərin hekayələri yer alıb. Yeni tərcümələrdə Mark Freşi oxuya bilərsiz. Yüz ilin birinciləri rubrikasında “Azərbaycan brendi”ni Südabə Ağabalayeva yaradıb.

Tənqid və ədəbiyyatşünaslıqda Salidə Şərifova, Mobil Aslan, Vaqif Yusifli maraqlı mətnlərlə çıxış edib.

***XQ***

# Külək, yağış, qar və duman

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, fevralın 6-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Günün birinci yarısında bəzi yerlərdə çiskinli yağış yağacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi əsəcək. Gecə 3-5°, gündüz 6-8° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 765 mm civə sütunu, nisbi rütubət 70-80 faiz olacaq.**

**Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq və dağətəyi rayonlarda qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.**



**Havanın temperaturu gecə 0-4°, gündüz 5-9° isti, dağlarda gecə 3-8° , yüksək dağlıq ərazilərdə 9-14°, gündüz 0-5° şaxta olacaq.**

***Q. QASIMOV***
***XQ***

# Quba B.Səfəroğlunun yubileyinə hazırlaşır



**Qubada Xalq artisti Bəşir Səfəroğlunun 100 illik yubileyi qeyd olunacaq. Mərasim mart ayının əvvəllərində Milli Teatr Günü ərəfəsində Bəşir Səfəroğlu adına Quba Mədəniyyət Mərkəzində keçiriləcək.**

Məclisdə istedadı ilə adını sənət tariximizə qızıl hərflərlə yazdırmağı bacaran Bəşir Səfəroğlunun həyat və yaradıcılığından geniş söz açılacaq, qubalı teatrsevərlərə Səfəroğlu sənətinin layiqli davamçısı, görkəmli aktyorun qızı, Xalq artisti Afaq Bəşirqızının iştirakı ilə tamaşa təqdim olunacaq.

Xatırladaq ki, Bəşir Səfəroğlu 1925-ci il martın 11-də Bakıda dünyaya göz açıb. “Aygün” (Əmirxanın dostu), “Qəribə əhvalat” (Cəmil), “Əhməd haradadır?” (Sərxoş), “Ulduz” (Gülümsərov), “Xoca Nəsrəddinin 12 qəbri” (Nəsrəddin), “Yun şal” (Kişi) və “Yaşamaq gözəldir, qardaşım” (Səfər) filmlərində çəkilib. Altmışıncı illərin ortalarında Azərbaycan Dövlət Filarmoniyasında təşkil olunan “Gəlməli, görməli, gülməli” miniatür teatrında aktyor onlarla satirik obraz yaradıb.

Bəşir Səfəroğlu 1964-cü ildə Əməkdar artist, 1968-ci ildə isə Xalq artisti fəxri adlarına layiq görülüb. O, 1969-cu il martın 23-də vəfat edib və Fəxri xiyabanda dəfn olunub.

***XQ***

# “ASAN” avtobus Yevlaxda

**“ASAN xidmət”in müasir texnoloji avadanlıqla təchiz edilmiş xüsusi avtobusu fevralın 3-dən başlayaraq Yevlax şəhərində sakinlərə səyyar xidmət göstərir. Xəbərdə qeyd olunur ki, əhaliyə səyyar formada xidmətlərin göstərilməsi üçün Yevlax şəhərinin mərkəzində, əhalinin gediş-gəlişinin sıx olduğu küçədə xüsusi yer ayrılıb.**



Səyyar şəkildə göstərilən xidmətlər Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Sosial Müdafiə Fondu və İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən təqdim olunur.




Vətəndaşlara tibb, bank (dövlət rüsumlarının və xidmət haqlarının qəbulu) xidmətləri, həmçinin daşınmaz əmlakın təsvirinə, dövlət qeydiyyatına alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayışların, mənzillər üzərində mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması barədə çıxarışların verilməsi və sair xidmətlər göstərilir. “ASAN xidmət”in səyyar avtobusu Yevlaxda fevralın 26-dək xidmət göstərəcək.

***XQ***

***✓ “GİGALAB” MMC-yə məxsus dairəvi möhür itdiyi üçün etibarsız sayılır. VÖEN-1506338151.***

***✓ Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı Şəhər Ərazi İdarəsi tərəfindən Ağayev Hidayət Salman oğlunun adına verilmiş fərdi yaşayış evinin MA seriyalı, 0225218 nömrəli çıxarışı itdiyi üçün etibarsız sayılır. Ünvan-Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi, Hövsan Zeytunçuluq sovxozu, 3-cü döngə, ev 45.***

**BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29**
**Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com**
**Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az**
**+994(51) 280-16-44**

**“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.**

**ÜNVANIMIZ:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

**İNDEKS 0282**
**TİRAJ 3061**
**SİFARİŞ 242**
**QİYMƏTİ 60 qəpik**

**Növbətçi redaktor**
**Tahir AYDINOĞLU**

**Çapa imzalanmışdır 00:00**